RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 65 (8381) CÜMƏ AXŞAMI, 9 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Məqsəd əhalinin sağlamlığını və təhlükəsizliyini təmin etməkdir

## İlham ƏLİYEV: "İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar"

**Vətəndaşların qlobal pandemiyaya çevrilən koronavirus (COVID-19) infeksiyasından qorunması bu gün Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Təsadüfi deyil ki, respublikamız bu təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir.**

### Zamanında həyata keçirilən qabaqlayıcı tədbirlər

Hazırda COVID-19 bütün ölkələrdə sürətlə yayılmaqda davam edir. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının son məlumatına görə, dünyanın 200-dən artıq ölkəsində 1,5 milyona yaxın insan koronavirusa yoluxub. 83 mindən çox insan isə koronavirus səbəbindən vəfat edib. Xəstəliyin əhatə dairəsi, yoluxma tendensiyası gündən-günə sürətlə genişlənməkdədir. ABŞ, İtaliya, İspaniya, Almaniya, Fransa kimi dövlətlər artıq koronavirusa yoluxma sayına və insan ölümünə görə xəstəliyin ilk yayıldığı Çini geridə qoyublar. Bu ölkələrdə hər gün yüzlərlə insan ölümü baş verir. İntensiv qabaqlayıcı tədbirlər həyata keçirilməsinə baxmayaraq, qısa müddətdə infeksiyanın yayılmasının qarşısını almaq mümkün olmayıb.

Azərbaycanda ilk günlərdən koronavirusla mübarizə məqsədilə atılan qabaqlayıcı addımlar kimi sosial izolyasiya tədbirləri həyata keçirildi. Lakin təəssüflə qeyd edilməlidir ki, əvvəllər virusa yoluxma xaricdən gələnlər arasında müşahidə edilirdisə, sonradan daxildə də bir-birini yoluxdurma halları baş verdi. Xəstəliyin artımına səbəb isə virusun aqressiv və yoluxma sürətinin yüksək olması ilə yanaşı, əhalinin əksər hissəsinin xüsusi rejim qaydalarının tələblərinə əməl etməməsi, digər şəxslərlə sıx təmasları, ciddi zərurət olmadığı hallarda evdən çölə çıxmaları, ictimai nəqliyyatda karantin dövrünün tələblərinə tabe olmamaları və digər mövcud qaydalara əməl etməmələridir.

Ona görə də insanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək, bununla da infeksiyaya yoluxmanın sürətini azaltmaq məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən isə əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə hərəkət məhdudiyyətlərinin tətbiqi ilə bağlı qərarı qüvvəyə minib. İnsanların evlərindən çıxışına yalnız təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə gedildikdə, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə icazə verilir. Ölkə daxilində gediş-gəlişin məhdudlaşdırılması, Bakıda metronun bağlanması kimi tədbirlər də məhz vətəndaşlar arasında təmasın dayandırılmasına xidmət edir.

*Ardı 5-ci səh.*

## Baş redaktordan

# 2. Özümüzü, doğmalarımızı, yaxınlarımızı və yanımızdakıları qoruyaq!

Dünənə qədər dünya qanla çalxalanırdı!

İnsanlar dövlətlər daxilində və dövlətlər arasında açıq və gizli cəbhələrə bölünərək bir-birinin ayağından dartır, qanını axıdır, ara yerdə günahsız insanları, dinc sakinləri qıraraq evlərini dağıdır, çöllərə-düzlərə salır, bir ömrü sakit yaşamağa qoymurdular!

**Dünənədək evi-eşiyi, bir parça çörəyi və sabaha böyük ümidləri olan insanlar bu oyunların nəticəsində qaçqına (miqranta) çevrilib evlərini, çörəklərini və ümidlərini itirərək dərbədər düşürdülər.**

*Çox vaxt sağ qalmaq və bir parça çörək tapmaq üçün üzlərini onları həmin günə salan və ya bütün bu haqsızlıqlara müxtəlif şəkildə dəstək verən, ən yaxşı halda özünü görməzliyə vuraraq səsini çıxarmayanların ölkəsinə üz tutur, necə deyərlər, düşmənə pənah aparırdılar...*

**Burada da onları çörək və ümiddən çox ölüm gözləyirdi. Ya qayıqlarını çevirib dənizin dibinə göndərir, ya sərhəddə güllləyə tutub öldürür, ən yaxşı halda itlərlə, tikanlı məftillərlə qarşılayır, dəmir qəfəslərdə saxlayırdılar.**

Bütün bunlar dünən idi...

Bu gün isə hamı - bütün dövlətlər və insanlar bir düşmənə - koronavirusa qarşı döyüşə başlayıb!

**Ulu Tanrı çox qısa müddətdə bütün cəbhələri bağlayıb bir cəbhə açdı! COVID-19 cəbhəsini!**

Neftli əraziləri ələ keçirmək, oğurluq nefti gizli satmaq uğrunda bir-birinə düşmən kəsilənlərin, badalaq gələnlərin başını öz həyatlarını qorumaq hayına qatdı!

Həm də qırmızı qan axıdan qara neftin qiymətini o qədər aşağı saldı, üstəlik, istehsal prosesini məhdudlaşdırmaqla gərəksiz etdi ki, "neft döyüşü" maraqsız və gərəksiz oldu...

Pula getməyən mal kimə lazımdır?

*Bəli, Allah bir daha dünyanın yadına saldı ki, həyatda ölüm də var və insanı elə bir gözləmədiyi vaxtda, elə şəkildə yaxalayır ki, "mık" da eliyə bilmir!*

*Odur ki, hamıya dinc və sakit yaşamaq, bir parça çörək qazanmaq imkanı vermək lazımdır!*

**Müharibə, qarşıdurma, zorakılıq insanlara və dövlətlərə xoşbəxtlik gətirmir!**

Gətirsə də, müvəqqəti olar!

İnsanı yaşatmaq, dövlətlərarası əməkdaşlığı genişləndirmək, bir-birinə əl tutmaq daha doğru, ağıllı və Allaha xoş gedən yoldur!

❖ ❖ ❖

Xalqımız müharibənin, ölüm-itimin, qaçqınçılığın nə olduğunu yaxşı bilir!

**32 ildir ki, bu zilləti çəkirik!**

**20 min Vətən övladını şəhid vermişik!**

**Yenə də vaxtaşırı əsgər balalarımız şəhid gedir!**

Amma bizim heç bir günahımız yoxdur, heç kimin torpağına göz dikməmişik, kimsənin sərvətini mənimsəmək istəmirik!

Özümüzünkü özümüzə bəsdir!

*Yeganə arzumuz işğal altındakı torpaqları azad etmək, qaçqınları və məcburi köçkünləri doğma yurd-yuvalarına qaytarmaq, dağıdılan kənd və şəhərləri, qəsəbələri bərpa etməkdir!*

**Bu istək və mübarizədə Allahımıza və Ali Baş Komandanımıza güvənirik!**

**Allahdan rəhm və kömək diləyirik!**

**Prezidentimizə inanır və güvənirik!**

**Bilirik ki, bizi tək qoymayacaqlar!**

❖ ❖ ❖

**Koronavirus bəlası başlayandan ilk həyəcan təbilini cənab İlham Əliyev çaldı!**

**Həmişəki kimi hamını qabaqladı!**

*Dünya hələ arxayın-arxayın Çinə baxanda, Uhanın çox uzaqda olduğunu, özlərinin isə təhlükəsiz yerdə yaşadığını güman edəndə Prezidentimiz ən zəruri addımları atdı, müvafiq qurumlar yaratdı, mövcud qurumları işlək, hazır vəziyyətə gətirdi, bütün imkan və qüvvələri səfərbər edən qərarlar verdi!*

*Hadisələri qabaqlamaq, ölkə vətəndaşlarının qorunmasını və müalicəsini təşkil etmək, xaricdə çarəsiz qalanları Vətənə gətirmək üçün təsirli tədbirlər gördü.*

*Hamını ayıltmağa, təhlükənin böyüklüyünü və qorxusunu anlatmağa nail oldu!*

Vaxtında zəruri və qabaqlama tədbirləri görməyən İtaliya və İspaniyanın necə ağır vəziyyətə düşdüyünü, İranda epidemiyanın tüğyan edərək kütləvi qırğınlar və yoluxmalar törətdiyini ürək ağrısı ilə seyr edirik!

**Həm də şükür edirik: nə yaxşı Prezidentimiz məsələnin üstünə tez düşdü, insanları, dövlət qurumlarını vaxtında ayağa qaldırdı, indiyədək rast gəlmədiyimiz bəlanın qorxulu olduğunu hamıya anlatdı, təhlükəyə soyuq, laqeyd, biganə yanaşmağa yol vermədi!**

Hələ koronavirusa qarşı döyüş yeni başlayır!

Hələ qarşıdakı təhlükə ram edilməyib, zərərsizləşdirilməyib!

Hələ bizi çox çətinliklər və sınaqlar gözləyir!

Əsas odur ki, bu gün nə edəcəyimizi, özümüzü necə qoruyacağımızı bilirik!

Əsas odur ki, daha hansı çətinliklərlə rastlaşacağımızı, onları necə aradan qaldıracağımızı anlayır və ona hazırlaşırıq!

**Əsas odur ki, xalqını və dövlətini sevən müdrik rəhbərimiz, uzaqgörən, çətin anlarda ən doğru və optimal qərarlar qəbul edən Prezidentimiz var!**

Onun rəhbərliyi ilə vəziyyət nəzarətdə saxlanılır!

❖ ❖ ❖

İlk günlərin çaşqınlığı və ajiotajı qısa müddətdə aradan qaldırıldı!

Arxayınçılığı, laqeydliyi, qorxunc virusa qarşı laqeyd münasibəti isə birgə səylə əsasən aradan qaldırmışıq!

*Bu gün insanlar təhlükəni dərindən dərk ediblər!*

*Necə hərəkət etməyi öyrəniblər!*

*Bəladan necə qorunmağın yollarını artıq bilirlər!*

Birinci növbədə özümüzü qorumalıyıq!

Koronavirusa yoluxmadan qorunmalıyıq!

Zəruri qaydaları (Nazirlər Kabineti yanında Operativ Qərargahın təsdiq etdiyi qaydaları və xüsusi karantinin tələblərini) gözləməsək, virusa yoluxma hər an mümkündür!

**Özümüzü həm də öz ailəmiz üçün qorumalıyıq!**

*Ardı 2-ci səh.*

# Azərbaycan bu çətin günlərdə də sosial dövlət olduğunu sübut edir

**Dünyanın canına və malına qənim kəsilən koronavirus meydan sulamaqda davam edir. Az qala bütün bədən orqanlarını köçürə bilən tibb, demək olar heç nədən canlı varlıq yaratmağı bacaran biologiya elmləri hələ ki bu virusun əlində aciz qalıblar. Hətta o dərəcədə ki, "döyüş meydanı"ndan çəkilərək insanlara evlərinə sığınmaqdan savayı təkliflərinin olmadıqlarını etiraf edirlər.**

İndi gözümüzlə gördüyümüz Bakıya, dünyanın televiziya ekranlarından seyr etdiyimiz digər şəhərlərinə baxanda adamın ürəyi ağrıyır. Hər yerdə həyat sönüb, sanki bəşəriyyətin sonu gəlib. Sən demə, doğrudan da yer üzünün əşrəfi insanmış. Hanı paytaxtımızın qulaqbatıran səy-küyü, iynə atsan yerə düşməz insan kütləsi, basırıq avtobusları, metrosu, lap elə bəzən saatlarla vaxtımızı və əsəbimizi alan tıxacları... Nə şükürsüz adamlarmışıq ki, bilməmişik o günlərin qədrini, ləzzətini.

*Ardı 6-cı səh.*

# Növbəti əfv sərəncamı ilə 176 məhkum, o cümlədən 165 kişi və 11 qadın cəzasının çəkilməmiş hissəsindən azad edildi

**Dünyada koronavirus (COVID-19) pandemiyasının tüğyan etdiyi bu günlərdə Azərbaycan vətəndaşlarının sağlamlığının və təhlükəsizliyinin təmin olunması istiqamətində dövlət başçısı tərəfindən qaldırılan təşəbbüslər, həyata keçirilən təxirəsalınmaz tədbirlər, o cümlədən karantin rejiminin daha da möhkəmləndirilməsi geniş ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir.**

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın hər an doğma xalqının, onun ən həssas təbəqəsinin, sosial müdafiəyə ehtiyacı olanların yanında olması, maddi-mənəvi dəstək göstərmələri birmənalı şəkildə dualar və alqışlarla qarşılanır.

## Bağışlamaq qəlbin böyüklüyüdür



# Dövlət başçısının daha bir humanist addımı

Bu çətin sınaqlı günlərdə Azərbaycan Prezidentinin daha bir humanist addımı da xalq-hakimiyyət vəhdətinin heç zaman azalmayacağını ortaya qoydu.

Koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan, yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə əsasən, dövlət başçısı məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndi ilə "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 2020-ci il 6 aprel tarixli sərəncam imzaladı.

*Ardı 3-cü səh.*

# Ermənistanda koronavirusun geniş yayılmasının səbəbkarı hakimiyyətdir

## Paşinyan iqtidarının səriştəsizliyi, pandemiya ilə bağlı vəziyyətin düzgün qiymətləndirilməməsi işğalçı ölkəni uçuruma yuvarladıb

**Ermənistanda koronavirusun yayılmasının qarşısını almaq məqsədilə martın 16-dan aprelin 14-dək fövqəladə vəziyyət elan edilsə də, ölkədə bu xəstəliyə yoluxanların sayı artır.**

Bu fonda ölkədə fövqəladə vəziyyət rejimi şəraitində tətbiq edilən bir sıra məhdudiyyətlər daha da sərtləşdirilib və daha 10 gün müddətinə uzadılıb.

Bununla belə, təkcə son bir sutkada daha 20 yoluxma halı qeydə alınıb və yoluxanların ümumi sayı 850-ni keçib. Tətbiq edilən məhdudiyyətlər bəzi iqtisadi fəaliyyət növlərinə və azad hərəkət etmək azadlıqlarına aiddir.

*Ardı 7-ci səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Samux rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samux rayonunun əhalisi 35078 nəfər olan 13 yaşayış məntəqəsində *(siyahı əlavə olunur)* əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 15 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,05 milyon (bir milyon əlli min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 8 aprel tarixli Sərəncamına
Əlavə

### Samux rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Alıuşağı kəndi | 1 | 1836 |
| 2. | Bağbanlar kəndi | 1 | 571 |
| 3. | Füzuli kəndi | 1 | 1705 |
| 4. | Qarabağlar kəndi | 1 | 1833 |
| 5. | Qarayeri qəsəbəsi | 1 | 6257 |
| 6. | Qiyaslı kəndi | 1 | 536 |
| 7. | Qovlarsarı kəndi | 1 | 1530 |
| 8. | Lək kəndi | 1 | 1560 |
| 9. | Samux şəhəri | 3 | 10228 |
| 10. | Sarıqaya kəndi | 1 | 1034 |
| 11. | Sərkar kəndi | 1 | 5536 |
| 12. | Tatlı kəndi | 1 | 1070 |
| 13. | Yuxarı Ağasıbəyli kəndi | 1 | 1382 |
| Cəmi | | 15 | 35 078 |

# "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 839; 2017, № 9, maddə 1651; 2018, № 1, maddə 42, № 4, maddə 656, № 12 (I kitab), maddə 2569; 2019, № 5, maddə 854) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bəndə "güzəştli kreditlərin" sözlərindən sonra ", təminatların" sözü əlavə edilsin.

2. 2.0.3-cü yarımbəndə "kreditlər" sözündən sonra "və həmin kreditlərə təminat" sözləri əlavə edilsin.

3. aşağıdakı məzmunda 3.0.1-1-ci yarımbənd əlavə edilsin:

"3.0.1-1. aqrar sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin, ailə-kəndli təsərrüfatlarının müvəkkil kredit təşkilatları vasitəsilə aldıqları mikrokreditlər üzrə risklərə qismən təminat verilməsini təmin etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2020-ci il*

# "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 fevral tarixli 545 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 fevral tarixli 545 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 244) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissədə "ilkin nizamnamə fondu 500 000 (beş yüz min)" sözləri "nizamnamə fondu 954 008 (doqquz yüz əlli dörd min səkkiz)" sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "ilkin nizamnamə fondunun məbləği 500 000 (beş yüz min)" sözləri "nizamnamə fondunun məbləği 954 008 (doqquz yüz əlli dörd min səkkiz)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2020-ci il*

# 2. Özümüzü, doğmalarımızı, yaxınlarımızı və yanımızdakıları qoruyaq!

*Əvvəli 1-ci səh.*

**Çünki harada, necə yoluxsaq, evə gedirik, ilk növbədə, ailə üzvlərimizlə təmasa giririk!**

**Odur ki, özümüzü qorumaqla doğmalarımızı da qorumuş oluruq!**

Virus 14-21 gün gizli dövrünü yaşayır və bu dövrdə başqalarına da asanlıqla keçir!

Həmin dövrdə doğmalarımızla - ata, ana, bacı, qardaş, oğul-qızla görüşürük!

**Biz ən əziz insanları bu bəlaya düçar etməmək xatirinə özümüzü qorumalıyıq!**

Daim əhatəmizdə yaxınlarımız, iş yoldaşlarımız olur!

Onları da və onların vasitəsilə həmin insanların ailələrini də yoluxdura bilərik!

**Bizə yaxın və əziz olan insanları da qorumaq, başqalarına ağrı-acı yaşatmamaq üçün də özümüzü qorumalıyıq!**

Vətəndaş məsuliyyətimizi dərk etməliyik!

İnsanlıq borcumuzu dərindən anlamalıyıq!

**Azərbaycan vətəndaşlarını, Vətən övladlarını qorumalıyıq!**

**Vətənimizin gücünü, qüdrətini, qısa zamanda qazandığımız uğur və nailiyyətlərimizi də qorumalıyıq!**

❖❖❖

*Dövlətimiz heç zaman bizi tək qoymur!*

*Dövlət başçısı xalqın rifahını yüksəltmək üçün daim təsirli addımlar atır, mühüm qərarlar qəbul edir və biz onun nəticəsini daim həyatımızda, məişətimizdə hiss edirik.*

**Bu gün də dövlətimiz və Prezidentimiz yanımızdadır!**

Tibbi-təşkilati, sosial-iqtisadi, maddi-mənəvi cəhətdən hər gün yeni bir qərarın, addımın şahidi oluruq!

**Bizim üzərimizə düşən hazırkı vəzifə isə məsuliyyətli davranmaq, deyilənlərə əməl etmək, qaydaları vicdanla, şüurlu şəkildə yerinə yetirməkdir!**

Bu bəlaya yalnız birlikdə, birgə səylə qalib gəlmək mümkündür!

Dövlətimiz hər cür köməyi, yardımını edir!

Bu məsələdə biz ona dəstək verməsək, deyilənlərə əməl etməsək, tədbirlərin lazımi effekti olmaz!

Tək əldən səs çıxmaz - deyiblər!

**Bu gün xalqla iqtidarın, vətəndaşla dövlətin birliyinə, əlbir fəaliyyətinə daha çox ehtiyac var!**

Bir olaq, hər cür xəstəliyə və düşmənə birlikdə, birliyimizlə qalib gələk!

***Bəxtiyar SADIQOV***

# *Hikmət HACIYEV:* "İndiyədək xarici ölkələrdə olan 15 mindən çox vətəndaşımız Azərbaycana gətirilib"




**"Xaricdəki Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində tədbirlər davam etdirilir. İndiyədək xarici ölkələrdə olan 15 minə yaxın vətəndaşımızın müxtəlif xətlərlə, o cümlədən dövlət hesabına həyata keçirilən çarter reyslərlə Azərbaycana gətirilməsi təmin olunub. Həmin vətəndaşlar xüsusi karantin zonalarında yerləşdirilir".**

AZƏRTAC xəbər verir ki, bunu aprelin 8-də Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, aprelin 20-nə qədər Azərbaycana beynəlxalq hava yolları və quru yollarla, sərhəd-keçid məntəqələri vasitəsilə giriş-çıxış dayandırılıb. Bu hal yükdaşımalara şamil edilmir. Sərhədlər bağlansa da, müstəsna hallar qeydə alınır.

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, xaricdəki diplomatik nümayəndəliklər vətəndaşlarımızla təmasdadırlar. Xüsusi ehtiyacı olan vətəndaşlara diplomatik nümayəndəliklər, aidiyyəti dövlət qurumları dəstək göstərirlər.

# *Mikayıl CABBAROV:* "Qəbul edilmiş dəstək proqramları iş yerlərinin saxlanmasına və iqtisadi fəallığın qorunmasına yönəlib"



"Koronavirus pandemiyası ilə əlaqədar sahibkarlıq subyektlərinə mənfi təsirin azaldılması məqsədilə Nazirlər Kabinetinin qəbul etdiyi Tədbirlər Planına əsasən, sahibkarlara və onların işçilərinə koronavirus pandemiyasından dəyən zərərin ödənilməsi proqramına start verilir.

Proses 3 mərhələyə bölünüb. İlkin mərhələdə, hədəf pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi, fərdi və mikro sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, habelə iqtisadi fəallığın qorunması məqsədilə vergi stimullarının verilməsidir.

Pandemiyadan zərər çəkmiş sahələrdə iş yerlərinin sayının azaldılmasının qarşısının alınmasına hesablanan bu proqram 300 min işçi, 42 min işəgötürən və bundan əlavə, təxminən 300 min fərdi və ya mikro sahibkarı əhatə edəcək. Bunun üçün zərərə məruz qalmış sahələr və zəruri meyarlar müəyyənləşdirilib. Dövlət muzdlu işçilərin əməkhaqqının saxlanmasına 215 milyon manat həcmində maliyyə dəstəyi ayırıb. Bu məbləğ 2 bərabər hissəyə bölünərək aprel və may aylarında ödəniləcək. Bu ödənişlərdən əlavə dövlət sosial sığorta ayırmaları da hesablanaraq ödəniləcək. Əsas məqsəd hər bir işçinin gələcək sosial müdafiəsinin təmin edilməsidir ki, perspektivdə pensiya ilə bağlı hər hansı problem yaşanmasın".

AZƏRTAC xəbər verir ki, İqtisadiyyat naziri Mikayıl Cabbarov bu məsələ ilə bağlı münasibət bildirib.

Onun sözlərinə görə, müəssisələrin muzdlu işçilərə ödədiyi əməkhaqqının dəstəklənməsi məqsədilə əsas meyar kimi ölkədə yanvar ayına olan orta əməkhaqqı məbləği götürülüb. Bu, 712 manat təşkil edir. Bu məbləğdən daha aşağı əməkhaqqı alan hər bir işçinin əməkhaqqı tam həcmdə dövlət tərəfindən müəssisəyə ödəniləcək. Orta aylıq əməkhaqqından daha çox alan işçi üçün maksimal hədd orta ayılıq əməkhaqqı səviyyəsində müəyyən edilib.

Həmçinin mikro və fərdi sahibkarlara da ödəniş proqramına start verilir. 300 min fərdi sahibkara dövlət tərəfindən 80 milyon manat həcmində maliyyə dəstəyi ayrılıb. Bu maliyyə yardımı 2019-cu ildə vergilərini, məcburi dövlət sosial sığorta haqlarını və işsizlikdən sığorta haqlarını ödəmiş vergi ödəyicilərinə şamil edilir.

Maliyyə dəstəyini tezləşdirmək üçün fərdi sahibkarlar İnternet Vergi İdarəsində mövcud olan elektron kabinetləri vasitəsilə müraciət edir və dövlət büdcəsindən ayrılan vəsaitlər həmin fərdi sahibkarların bank hesablarına köçürülür.

İqtisadiyyat naziri qeyd edib ki, hər bir mikro və ya fərdi sahibkara ödənilən minimal məbləğ 250 manatdan az olmayacaq. Maksimal məbləğ isə 5000 manat həcmindədir. Bir çox fərdi sahibkarın muzdlu işçiləri də var və bu şəxslər də dövlət proqramından yararlanacaqlar.

Bununla yanaşı, iqtisadi fəallığın qorunması məqsədilə sahibkarlara vergi stimulları da veriləcək. Biznes kreditlərinə dəstək proqramlarına isə 1,5 milyard manat ayrılıb. Atılan addımlar sahibkarlara bu müddət ərzində yeni planlar qurmaq və bizneslərini inkişaf etdirmək üçün bir fürsətdir. Dövlət strukturları iş yerlərinin azaldılmaması, işçilərin ixtisar olunmaması, biznes itkilərini azaltmaq üçün sadalanan istiqamətlərdə fəaliyyət bərpa olunandan sonra da zəruri dəstəyi verəcək.

M.Cabbarov bildirib ki, bütün bu dəstək tədbirləri, qəbul edilmiş proqramlar, sahibkarlığa kredit-zəmanət mexanizmi, vergi güzəştləri ilə bağlı qanunverici təşəbbüslər iqtisadi fəallığın qorunmasına yönəlib və ölkənin gələcək iqtisadi artımını təmin etmək üçün zəruri bazanı və elementləri özündə əks etdirir.

# *İbrahim MƏMMƏDOV:* "Vətəndaşlar qaydalara əməl etməsələr, karantin rejiminin müddəti uzadıla bilər"

**Ölkəmizdə karantin rejiminin müddəti uzadıla, hətta qaydalar sərtləşdirilə bilər.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

"Statistika göstərir ki, əksər vətəndaşlar karantin rejiminin qaydalarına əməl etmirlər. Əgər yoluxanların sayı artsa və vətəndaşlar qaydalara əməl etməsələr, karantin rejiminin müddəti uzadıla, hətta qaydalar sərtləşdirilə bilər.

Təəssüf ki, bəzən qaydaları pozanlar arasında savadlı şəxslər də olur. Əgər vətəndaşlar qaydalara əməl etsələr, yoluxmanın sürəti azalar, sağalanların isə sayı artar", - deyə İ.Məmmədov diqqətə çatdırıb.

# ÜST koronavirus pandemiyasına qarşı tədbirlərin yumşaldılmasına dair xəbərdarlıq edib



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa bürosu koronavirus pandemiyasına qarşı tədbirlərin vaxtından əvvəl yumşaltmamağa çağırıb.

AZƏRTAC xəbər verir ki, Avropa bürosunun rəhbəri Hans Kluqe onlayn brifinqdə hazırkı mərhələdə sərt tədbirlərin mülayimləşdirilməsini düzgün addım hesab etməyib. O bildirib ki, virusun təbiəti haqqında məlumatların artması və bəzi ölkələrdə infeksiyanın yayılmasının nəzarət altına alınması hələ virus üzərində qələbə anlamına gələ bilməz. Müsbət irəliləyişlər tədbirləri yumşaltmağa deyil, virusa qarşı mübarizəni daha yaxşı davam etdirməyə xidmət etməlidir. ÜST rəsmisi bildirib ki, koronavirus pandemiyasına qarşı mübarizə marafonunda qarşıda qət ediləsi uzun məsafə var. Qeyd edilib ki, heç bir dövlət təkbaşına virus üzərində qələbə çala bilməyəcək və buna görə də bu böhrana qarşı mübarizə tədbirləri beynəlxalq səviyyədə koordinasiya edilməlidir.

Xatırladaq ki, Avstriya, Danimarka və Çexiya kimi ölkələr müsbət inkişafı nəzərə alaraq bəzi sahələrdəki məhdudiyyətləri aradan qaldıracaqlarını elan ediblər.

# Ölkəmizdə koronavirusa yoluxanların sayı 822-yə çatıb

**Ölkəmizdə koronavirus (COVID-19) infeksiyasına daha 105 nəfər yoluxub. Naxçıvan Muxtar Respublikasında yoluxanların sayı da bu rəqəmə daxildir. Bununla yanaşı, 19 nəfər sağalaraq evə buraxılıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin - TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

"Hazırkı dövrədək ölkəmizdə 822 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 63 nəfəri müalicə olunaraq sağalıb, 8 nəfər həyatını itirib. Ölkəmizdə aktiv xəstə sayı 751 nəfərdir", - deyə Ramin Bayramlı bildirib.

R.Bayramlı ölkədə koronavirusa yoluxmuş xəstələrin 2 yaşdan 89 yaşa kimi olduğunu bildirib. O, həmçinin diqqətə çatdırıb ki, gənclər arasında da xəstəliyi ağır keçirənlər var.

# Dövlət Agentliyindən icaze.e-gov.az portalı ilə bağlı xəbərdarlıq

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" üzrə qeydə alınmış məlumatların mütəmadi olaraq təhlili aparılır.

Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, təhlillər zamanı müəyyən edilmişdir ki, xüsusi karantin rejimi dövründə hüquqi şəxslərin vəzifəli şəxsləri və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər tərəfindən işçilər barədə məlumatlar icaze.e-gov.az portalına daxil edilərkən "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 nömrəli Qərarının tələblərinin pozulması hallarına yol verilib.

Bu cür hallara yol vermiş hüquqi və fiziki şəxslərdən 2020-ci il 9 aprel tarixdən etibarən icaze.e-gov.az portalından aşağıdakı şəxslərin icazələrinin ləğv edilməsi tələb olunur:

- xidmət və ya əmək müqaviləsi olmayan şəxslərin;
- fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan işçiləri istisna olmaqla, digər işçilərinin;
- yaşı 65-dən yuxarı olan, karantin rejimində öz yaşayış yerini tərk etməsi ilə bağlı məhdudiyyət qoyulmuş işçilərinin.

Eyni zamanda, hüquqi və fiziki şəxslərdən tələb olunur ki, xüsusi karantin rejimi dövründə fəaliyyətini iş yerindən davam etdirmələri zəruri olan işçilərinin say həddini müəyyən etsinlər və işə gəlməsi vacib olmayan, fəaliyyətini evdən davam etdirən digər işçilərinin icazələrini portaldan silsinlər.

2020-ci il aprelin 10-dan başlayaraq karantin rejimi qaydalarına zidd olan icazələr portaldan avtomatik rejimdə ləğv ediləcək, eləcə də yuxarıda qeyd olunan tələblərə əməl etməyən hüquqi və fiziki şəxslər barəsində hüquq mühafizə orqanlarına məlumat veriləcək.

# Azərbaycanda daha 105 nəfər koronavirusa yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına daha 105 yoluxma faktı qeydə alınıb.

AZƏRTC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib.

İbrahim Məmmədov ölkədə yoluxma hallarının davam etdiyini diqqətə çatdırıb.

# Etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqələrinin istifadə müddəti uzadılıb

Daxili İşlər və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən şəxslərin nəzərinə çatdırır ki, vətəndaşların müraciətləri nəzərə alınmaqla etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqələrinin istifadə müddəti xüsusi karantin rejimi bitənədək uzadılıb.

Daxili İşlər və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin mətbuat xidmətlərindən AZƏRTAC-a bildirilib ki, şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitmiş işsiz şəxslər də birdəfəlik ödəməni almaq üçün elektron qaydada müraciət edə bilərlər.

## Bağışlamaq qəlbin böyüklüyüdür

# Dövlətin öz vətəndaşlarına yüksək dəyər verməsinin növbəti ifadəsi



“Azərbaycan bütün azadlıqların, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunduğu, demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən ölkədir. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır, eyni zamanda bu siyasət milli maraqlara əsaslanır, sosial ədalət və humanizm prinsiplərini özündə ehtiva edir”.

Bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

Onun sözlərinə görə, respublikamızda vaxtaşırı olaraq azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən əfv sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması mühüm əhəmiyyət kəsb edir: “Bu, dövlətin humanizm siyasətini, eləcə də öz vətəndaşlarına humanist münasibətini əks etdirən mühüm faktlardan biridir. Bu müsbət ənənənin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra insan hüquqlarının təmin olunması istiqamətində mühüm addımlar atılıb, ölüm hökmünə moratorium qoyulub. O dövrdən etibarən Azərbaycanda heç kimə ölüm hökmü tətbiq olunmayıb və sonradan bu cəza növü ləğv edilib. Bununla yanaşı, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə çoxsaylı əfv sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib”.

Siyavuş Novruzov Azərbaycanın müstəqilliyini bərpa etdiyi 18 oktyabr 1991-ci ildən Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrə qədər ölkəmizdə amnistiya və ya əfv haqqında hər hansı bir qərar və sərəncam olmadığını xatırladaraq deyib: “Müstəqil respublikamızda 1996-cı ildən başlayaraq əfv sərəncamları imzalanıb, amnistiya haqqında qərarlar qəbul olunub”.

“Sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən müddət ərzində Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum azadlığa qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb. Bu, dövlət başçısının öz siyasətində daim humanizm prinsipini rəhbər tutduğunu göstərən mühüm faktlardandır. Sonuncu amnistiya aktı isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilib, 10 mindən artıq insana şamil olunub. Bütövlükdə dövlət başçısının imzaladığı qanunvericilik aktlarına əsasən indiyə kimi 4871 şəxs əfv edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları 40412 şəxsi əhatə edib, onlardan 8580 nəfər azadlıqdan məhrumetmə cəzasından azad olunub”, - deyə YAP İcra katibinin müavini diqqətə çatdırıb.

Siyavuş Novruzov Prezident İlham Əliyevin “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” 2020-ci il 6 aprel tarixli sərəncamına əsasən 165 kişi və 11 qadın olmaqla 176 məhkumun cəzanın çəkilməmiş hissəsindən azad edilməsinin mühüm əhəmiyyətə malik olduğunu deyib: “Sərəncam yeni növ koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yaşı 65-dən yuxarı bir sıra məhkumlara şamil olunub. Əfv məsələsinə baxılarkən məhkumların və onların ailə üzvlərinin müraciətləri, məhkumların səhhəti, törətdikləri cinayətlər, cəza çəkdikləri müddətdə davranışları və digər məsələlər nəzərə alınıb. Sərəncamda əfv edilən şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracağına, Azərbaycan dövlətinin qanunlarına gələcəkdə dönmədən əməl edəcəklərinə əminlik ifadə olunub. Əlbəttə, əfv olunanlar dövlətin onlara inam və etibarını daim hiss edirlər, bu isə onlara layiqli vətəndaş olmaq stimulu verir. Bütövlükdə Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan və böyük sosial əhəmiyyətə malik bu addımları yüksək dəyərləndirirlər. Şübhəsiz ki, ölkəmizdə mütəmadi olaraq əfv sərəncamlarının imzalanması, amnistiya aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir”.

# Həmrəyliyin və mərhəmətin İlham Əliyev nümunəsi

### Azərbaycan Prezidentinin koronavirus pandemiyası dövründə həyata keçirdiyi qabaqlayıcı tədbirləri həm xalq, həm də beynəlxalq birlik təqdir edir

**Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının təmin olunmasına və müdafiəsinə diqqətlə yanaşan Azərbaycan hakimiyyəti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşıb.**

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu humanizm ənənələrini davam etdirən Prezident İlham Əliyev hər zaman mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri əldə rəhbər tutaraq bayram günlərində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır. Ardıcıl olaraq dövlət başçısı tərəfindən əfv sərəncamlarının imzalanması istər humanizm, istər əxlaqi, istərsə də cəmiyyətdaxili harmoniyanın qorunması baxımından böyük önəm daşıyır.

### Diqqət və hörmətin bariz təcəssümü

Ümumiyyətlə, Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum azadlığa qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilən amnistiya aktları 10 mindən çox insana şamil olunub. Bütövlükdə, dövlət başçısının imzaladığı qanunvericilik aktlarına əsasən indiyə kimi 4871 şəxs əfv edilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları ümumilikdə 40412 şəxsi əhatə edib, onlardan 8580 nəfər azadlıqdan məhrumetmə cəzasından azad olunub.

Dövlət başçısının aprelin 6-da “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncamına əsasən isə 176 məhkumun, o cümlədən 165 kişi və 11 qadının cəzasının çəkilməmiş hissəsindən azad edilməsi mühüm əhəmiyyətə malikdir. Çünki sərəncam dünyanı cənginə alan koronavirus pandemiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan və yaşı 65-dən yuxarı bir sıra məhkumlara şamil olunub.

Sərəncamın digər mahiyyəti odur ki, dünyanı bürüyən koronavirus infeksiyası xüsusilə yaşlı insanları daha tez yoluxdurur və onların sağlamlıqlarını təhlükə altında qoyur. Mövcud vəziyyətdə mühüm qərarlar qəbul edən, sərəncamlar verən dövlət başçısı bu məsələdə də çox doğru qərar verərək yaşlı nəslə bir daha diqqət göstərdi və bu yaş kateqoriyasına uyğun yaşlı məhbusların azad olunmaları, sağlamlıqlarının mühafizəsi üçün humanist addım atdı.

Dövlət başçısı məhkumluq həyatı yaşayan bəzi yaşlı insanları əfv etməklə həm də bu xəstəliklə mübarizənin səmərəliliyinə əlavə töhfə vermiş oldu.

Prezident İlham Əliyev bu çətin günlərdə bir sıra ailələrə sevinc bəxş etdi.

Əlbəttə ki, bu, həm də Azərbaycan Prezidentinin dünyanı bürüyərək insanların həyatını təhdid edən koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri sırasında yaşı 65-dən yuxarı olan vətəndaşlarımızın sağlamlığının təminatını prioritet məsələ kimi öndə saxlaması, böyüklərimizə diqqət və hörmətin bariz nümunəsidir.



Yəni dövlət başçısının bu sərəncamı ilə yalnız azadlığa çıxan insanların qayğılarına diqqət göstərilməyib, eyni zamanda onların ailələrinin narahatlıqlarına da son qoyuldu.

Düzdür, həbsxana qapalı müəssisədir və orada epidemiyaya yoluxma riski azdır. Amma dövlət başçısı imzaladığı sərəncamla həbsxanalarda bu kateqoriyadan olan şəxslərin xüsusi qayğıya ehtiyacı olduğundan onların öz ailələrində daha yaxşı şəraitdə və diqqətlə əhatə olunmaları üçün real zəmin yaratdı.

Xüsusi olaraq vurğulanmalıdır ki, pandemiyanın respublikamızın müxtəlif bölgələrində yayılmasının müşahidə olunması və əfv edilən şəxslərin yaşayış yerlərinin 40-dək rayonu əhatə etməsi də dövlət tərəfindən nəzərə alınıb. Belə ki, azadlığa çıxan məhbusların doğmalarının yanına getməzdən əvvəl onların ailə üzvlərinin də sağlamlıq durumu araşdırılır. Bu məqsədlə azad olunan şəxslər istirahət mərkəzlərindən birinə ikihəftəlik yerləşdirilib və hər cür şəraitlə, o cümlədən qida və tibbi təminatla təchiz olunublar.

Bir sözlə, imzalanmış əfv sərəncamı bir daha nümayiş etdirdi ki, Prezident İlham Əliyev kimliyindən asılı olmayaraq birmənalı şəkildə bütün ölkə vətəndaşlarını düşünür, onlara hər zaman qayğı göstərir. Bütün bunlar Azərbaycan Prezidentinin insan amilinə verdiyi yüksək dəyərin təcəssümüdür.

### Azərbaycan koronavirusla bağlı müayinələrin sayına görə liderlər sırasındadır

Ümumiyyətlə, bu dəhşətli bəlanın bəşəriyyətə ağır zərbə vurmağa başladığı dövrdən Prezident İlham Əliyev ölkə vətəndaşlarının pandemiyadan etibarlı müdafiəsini təşkil etmək üçün qabaqlayıcı tədbirlər həyata keçirməyə başladı. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkədə karantin rejimi tətbiq edildi, sərhədlər bağlanıldı, ehtiyat fondundan vəsait ayrıldı. Dövlət dəstəyi proqramları hazırlandı. Bu proqramların icrası üçün 2,5 milyard manat ayrıldı. Qisa müddət ərzində ölkədə maska istehsalı müəssisəsi yaradıldı. Aprelin 7-də isə dövlət başçısı koronavirusa yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə hər birində 200 çarpayı olan modul tipli 6 xəstəxananın quraşdırılması ilə əlaqədar sərəncam imzaladı. Bu məqsədlə dövlət büdcəsindən 14,8 milyon manat vəsait ayrıldı.

Azərbaycan Prezidentinin bu istiqamətdə atdığı bütün addımlar beynəlxalq təşkilatlar, xüsusən də Ümumdünya Səhiyyə Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı tərəfindən təqdir olunur, eyni zamanda ölkə ictimaiyyəti tərəfindən də böyük rəğbətlə qarşılanır.

Bu gün dünyanın acınacaqlı mənzərəsinə nəzər yetirsək, bir daha şahidi olarıq ki, Azərbaycan dövləti koronavirusun ölkədə yayılmasının qarşısının alınması, vətəndaşların sağlamlığının qorunması, pandemiyanın sosial və iqtisadi fəsadlarının minimuma endirilməsi üçün əlindən gələni əsirgəmir və bu məqsədlə çoxistiqamətli preventiv tədbirlər həyata keçirilməkdə davam edir.

Hər kəs şahiddir ki, Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə ən öndə gedən ölkələrdən biridir. Hazırda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün bütün imkanlar mövcuddur, o cümlədən diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında gətirilərək tibb müəssisələrinə təhvil verilib. Virusun laborator diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub. Operativlik və sistemli yanaşma keyfiyyətlərini özündə ehtiva edən bu tədbirlər ölkə rəhbərliyinin siyasi iradəsindən güc alaraq uğurlu nəticələr verməkdədir.

Prezident İlham Əliyevin də söylədiyi kimi, görülən tədbirlər onu deməyə əsas verir ki, Azərbaycan pandemiya ilə mübarizədən az itkilərlə çıxa bilər. Bunun üçün hər kəs cənab Prezidentin “Biz birlikdə güclüyük” prinsipinə əsaslanaraq karantin qaydalarının tələblərinə əməl etməlidir ki, hökumətin göstərdiyi səylər də öz nəticəsini versin və Azərbaycan tez bir zamanda koronavirus bəlasından xilas olsun.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

# Əfv olunanlar dövlət başçısına minnətdarlıqlarını bildirdilər

Ölkəmizin bir sıra cəzaçəkmə müəssisələrində əfv olunanlarla bağlı xoş xəbər neçə-neçə ailəyə sevinc, insanlara xoş ovqat bəxş etmişdir. Bu, Azərbaycan Prezidentinin 2020-ci il aprelin 6-da imzaladığı “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncamının sədasından yaranmış reallıq idi.

Ölkə başçısı dünyada koronavirus (COVID - 19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan, yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətlərini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq 2020-ci il aprelin 6-da əfv sərəncamı imzalamışdır. Sərəncam aprelin 7-də ölkəmizin bir sıra cəzaçəkmə müəssisələrində səhər saatlarından icra edilməyə başlanmışdır. Sərəncama əsasən 176 məhkum, o cümlədən 165 kişi və 11 qadın cəzasının çəkilməmiş hissəsindən azad edilmişdir. Onların arasında 2 nəfər ömürlük cəzadan azad ediləndir.

Xatırladaq ki, Azərbaycanda ölüm hökmünün ləğv edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Böyük dövlətçilik təcrübəsinə malik Ulu Öndər 1993-cü ildə respublikada ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra bilavasitə onun təşəbbüsü ilə ölüm hökmü ləğv edilmiş, çoxsaylı əfv sərəncamları imzalanmış, amnistiya aktları qəbul





edilmişdir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu, 1995-ci ildən bəri məhkum edilmiş şəxslərə tətbiq edilən sayca 67-ci əfv sərəncamıdır. Həmin sərəncamlara əsasən minlərlə məhkum azadlığa qovuşub və ya cəzaları azaldılıb. Dövlət başçısının bu humanizm siyasətinin davamı kimi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 10 mindən çox insana şamil edilən amnistiya aktı həyata keçirilmişdir. Ümumiyyətlə, dövlət başçısının imzaladığı sərəncamlara əsasən indiyə kimi 4871 şəxs əfv edilib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları 40412 şəxsi əhatə etmiş, onlardan 8580 nəfər azadlıqdan məhrumetmə cəzasından azad olunmuşdur.

Bu xoş xəbərin sorağı ilə respublikamızın cəzaçəkmə müəssisələrinin qarşısına xeyli adam toplaşmışdı. Həddindən artıq həyəcanlı görünən bu insanlar doğmalarını qarşılamağa, vaxtından əvvəl baş verən bu görüşün sevincini elə cəzaçəkmə müəssisəsinin çıxışında bölüşməyə, heç nə ilə əvəz oluna bilməyən bu yaxşılığı onlara bəxş edən insanlara minnətdarlıqlarını bildirməyə gəlmişdilər. Ancaq biləndə ki, azadlığa buraxılmış məhbusların bundan sonrakı taleyi, sağlamlığı Azərbaycan Prezidentinin, Azərbaycan hökumətinin xüsusi nəzarətindədir, onlar daha da qürurlandılar. Belə ki, əfv haqqında rəsmi sənədlərin təqdimatından sonra onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətin nəzdindəki xəstəxanada, koronavirusa qarşı mübarizə məqsədilə yaradılmış məkanlarda karantin rejiminə götürüldülər. Məhkumlara göstərilən bu qayğını, bu missiyanı ictimaiyyətin nümayəndələri rəğbətlə qarşıladılar. 176 məhbus və onları evində, ailəsində görmək istəyənlər azadlığın və sağlamlığın həyatda böyük nemət olduğuna bir daha inandılar. Azadlığa buraxılanların, eləcə də onları qarşılamağa gələnlərin həyəcanlı çöhrələrində sevinc qarışıq təbəssüm hiss olunurdu. Bu insanların hamısı dünyanın belə narahat günlərində onları sevindirən, onlara ikiqat həyat və azadlıq ovqatı bəxş edən Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dönə-dönə minnətdarlıqlarını bildirdilər.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

# Dövlət başçısının daha bir humanist addımı



*Əvvəli 1-ci səh.*

Bu da 176 məhkumun, o cümlədən 165 kişi və 11 qadının cəzanın çəkilməmiş hissəsindən azad edilməsi deməkdir.

Əfv aktı Azərbaycan Prezidentinin insanpərvər siyasətinin növbəti təzahürüdür. Unutmayaq ki, dövlət başçısının imzaladığı qanunvericilik aktlarına əsasən prezidentliyi dövründə 4871 şəxs əfv edilib. Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları isə 40412 şəxsi əhatə edib ki, onlardan da 8580 nəfər azadlıqdan məhrum etmə cəzasından azad olunub.

Geniş ictimaiyyətin, eləcə də seçicilərinin fikirlərini ümumiləşdirən millət vəkillərinin mətbuata açıqlamalarında qeyd edilir ki, bu, eyni zamanda Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amilinin dayandığını bir daha təsdiqlədi. Milli Məclisin deputatı Vüqar İskəndərovun fikrincə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin humanizm ənənələrini davam etdirən Prezident İlham Əliyev tərəfindən əfv sərəncamlarının imzalanması artıq ənənə halını alıb və belə sərəncamların hər biri yüzlərlə vətəndaşımızın ailələrinə sonsuz sevinc bəxş edib: “...Yeni növ koronavirus infeksiyası ilə mübarizə çərçivəsində atılan bu addım bütün vətəndaşlarımız kimi, məhkumların da sağlamlığının daim dövlətin diqqət mərkəzində olduğunu nümayiş etdirdi. Məhz buna görə də hesab edirəm ki, cəmiyyətimizdə, ictimai rəydə olduqca müsbət hadisə kimi qarşılanan bu addım ümumi ictimai həmrəylik baxımından əlamətdar hadisəyə çevrildi”.

Bəli, Milli Məclisin deputatlarının xüsusi vurğuladıqları kimi, məhkum olunmuş 176 nəfərin cəzasının çəkilməmiş hissəsindən belə bir çətin vaxtda azad edilməsi dövlətin humanizm prinsiplərinin, dəyərlərinin yüksək həddə olduğunun göstəricisinə çevrilib. Deputat Rauf Əliyev də bu fikirləri təsdiqləyib: “Prezident İlham Əliyevin imzaladığı sərəncam cinayət törətmiş şəxslərə qarşı humanist addım olmaqla yanaşı, dövlət siyasətinin əsasını insan amili təşkil etdiyini yenidən göstərdi. Koronavirus təhlükəsindən qorunmağa çalışan insanlar bu sərəncamı ruh yüksəkliyi ilə qarşıladılar. Əfv olunan insanların sağlamlığını qorumaq, onları virusa yoluxmaqdan uzaq tutmaq üçün atılan addımın dövlətin humanist siyasətinin, vətəndaşa verilən diqqət və qayğının ardı-arası kəsilməyən nümunələrindən biri kimi qəbul edildi”.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

Qabaqlayıcı tədbirlər səmərə verir

# Karantin günlərində qayğıya ehtiyacı olanlar diqqət mərkəzində saxlanılır

## Ağdaşda aztəminatlı ailələrə ərzaq yardımı edilib



**Bu gün bütün bəşəriyyət qlobal pandemiya olan koronavirus təhlükəsi ilə üz-üzədir. Demək olar ki, Şərqdən Qərbə, Şimaldan Cənuba qədər bütün dövlətlərin sərt tədbirlər həyata keçirmələrinə baxmayaraq, virus insanlar arasında sürətlə yayılmaqdadır. 200-dən artıq ölkədə virusa yoluxanların sayının 1,5 milyon nəfərə yaxınlaşması, xəstəlikdən vəfat edənlərin sayının 85 minə çatması COVID-19 infeksiyasının nə dərəcədə təhlükəli olduğunu göstərir.**

Azərbaycanda virusun ilk nişanəsi görünən kimi sosial izolyasiya tədbirlərinə start verildi. İnfeksiyaya yoluxmanın qarşısını almaq üçün xüsusi rejim dövrü aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən Nazirlər Kabineti yanında Operativ Qərargahın respublika ərazisində hərəkət məhdudiyyətlərinin tətbiqi ilə bağlı qərarı qüvvəyə minib. Risk qrupunda olduqları üçün 65 yaşından yuxarı vətəndaşların evdən bayıra çıxmaları qadağan edilib.

Bu həssas günlərdə özünü qabarıq göstərən başqa bir məsələ isə respublikamızın hər yerində dövlət orqanları, ictimai təşkilatlar və ayrı-ayrı şəxslərin xeyriyyə və sosial aksiyalar həyata keçirmələridir. Məqsəd aztəminatlı ailələrin, ehtiyacı olanların, əlillərin, tənha yaşayanların karantin rejimi zamanı yarana biləcək sosial ehtiyaclarını təmin etmək, onlara maddi və mənəvi dəstək olmaqdır. Belə aksiyalardan biri bu günlərdə Ağdaş rayonunda keçirilib. Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri Cavid Osmanov tərəfindən keçirilən humanitar aksiyada rayonda 200 aztəminatlı ailəyə yardım edilib, onlara ərzaq və gigiyenik məhsullar verilib.

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Cavid Osmanov dedi: "Qlobal pandemiyaya çevrilən koronavirus infeksiyasının yayılması mənfi fəsadları ilə yanaşı, xalqımıza xas gözəl milli və mənəvi dəyərləri də ortaya qoydu. Belə ki, bu günlərdə hər bir vətəndaşımızın nümayiş etdirdiyi dəyər milli həmrəyliyin təcəssümüdür. Vətəndaşlar evdə qalarlarsa, karantin rejiminin tələblərinə əməl edərlərsə, koronavirus infeksiyasının da yayılmasının qarşısı alınar. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz birlikdə güclüyük". Məhz bu birliyimiz Azərbaycanın koronavirusa qalib gəlməsini təmin edəcək".

Ehtiyacı olanlara yardıma gəldikdə Cavid Osmanov dedi ki, hələ mart ayında Heydər Əliyev Fondunun keçirdiyi tədbir hər kəs üçün nümunədir: "Belə məsələlərdə nümunə ortaya qoyan Heydər Əliyev Fondu hələ bir müddət əvvəl bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərib. Belə ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrılıb, qeyd olunan müəssisələr dezinfeksiya edilib".



Cavid Osmanov bildirdi ki, respublikamızda koronavirus yoluxmanın qarşısının alınması, vətəndaşların təhlükəsizliyinin və sağlamlığının qorunması üçün bütün addımlar atılır. Bütün məsələlər Prezident İlham Əliyevin nəzarətindədir. Dövlət başçısının son dövrlərdəki bütün çıxışlarının baş mövzusu koronavirusun yayılmasının qarşısının alınmasıdır. Sumqayıt Kimya Sənaye Parkında yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında xalqa müraciət edən cənab İlham Əliyev bir daha hər kəsi məsuliyyətli olmağa səsləyərək, özlərini, yaxınlarını və ailə üzvlərini qorumağa çağırdı.

Qlobal probleme çevrilən koronavirusun bir çox dövlətlər üçün təhdid yaratdığını deyən Cavid Osmanov bildirdi ki, Azərbaycanda vaxtında sosial izolyasiya və karantin rejimi tətbiq olundu və respublikamız bu sınaqdan da layiqincə çıxacaq: "Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. Dövlət qurumlarının bu məsələdə operativ fəaliyyəti, təxirəsalınmaz tədbirlərin, o cümlədən operativ şəkildə sosial izolyasiya mexanizminin işə salınması göstərir ki, hər bir vətəndaşın təhlükəsizliyi və sağlamlığı əsasdır. Eyni zamanda Azərbaycan koronavirusla mübarizədə tibbi baxımdan hər cür potensiala malikdir. Ümumdünya Səhiyyə Təşkilatı ekspertlərinin qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Ona görə də respublikamızın bu sınaqdan da layiqincə çıxacağına şübhə yoxdur".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan koronavirusla mübarizədə bir çox Avropa ölkələrini qabaqlayıb

Bir neçə aydır bütün dünya COVID-19 adlı bəlayla mübarizəyə atılıb, qlobal pandemiyaya qarşı savaşır. Bu savaşda müxtəlif üsullara əl atılır, yeni "silahlar" - peyvənd və dərmanlar yaratmağa çoxsaylı cəhdlər edilir. Buna baxmayaraq hələ də dünya koronavirusa uduzur. Bu kiçik mikroorqanizm planetimizə yayılmağa, insanları yoluxdurmağa davam edir.

Lakin yeni tip koronavirusla mübarizədə tibb aləminin qeyd-şərtsiz qəbul etdiyi bir əsas şərt var. Virusun yayılmasının qarşısını almaq üçün, ilk növbədə, ona yoluxan şəxsləri tez aşkarlamaq lazımdır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) da rəyinə əsasən COVID - 19 pandemiyası ilə mübarizədə vacib şərtlərdən biri müayinələrin aparılması və xəstəlik hallarının vaxtında müəyyənləşdirilməsidir.

Yoluxma sürəti olduqca yüksək olan bu virusla mübarizənin effektiv nəticəsi məhz qabaqlayıcı, profilaktik tədbirlərin vaxtında və geniş həcmdə aparılmasından asılıdır. Bu baxımdan virusa yoluxmuş şəxslərin düzgün müayinə edilib zamanında aşkarlanması çox mühüm əhəmiyyət kəsb edir. Ona görə də testlərin keçirilməsinə xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək, ünsiyyətdə olduqları şəxsləri müəyyənləşdirmək və nəticədə yeni yoluxmaların qarşısını almaq mümkündür.

Bu istiqamətdə Azərbaycanda həyata keçirilən mühüm qabaqlayıcı və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alınıb, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib. Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib.

COVID-19-a yoluxma faktlarının müəyyən olunduğu ilk dövrlərdə Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə isə ölkəmiz artıq özü kifayət qədər testlər almağa başladı. İlkin vaxtlar ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi müayinələrin sayı xeyli artıb. Aprelin 7-nə olan məlumata görə, Azərbaycanda COVID-19-la bağlı 53 300 müayinə həyata keçirilib. Əhalinin hər bir milyon nəfərinə düşən müayinənin sayı 5262 nəfər təşkil edir. Bu rəqəm müayinələrin sayına görə Azərbaycanın MDB və Cənubi Qafqazda birinci yerdə olduğunu və bir çox Avropa ölkələrini qabaqladığını göstərir.

Təbii ki, imkanların genişlənməsi nəticəsində yoluxma hallarının da müəyyənləşdirilməsi artıb. Müayinələrin vaxtında aparılması COVID-19 infeksiyasının yayılmasının qarşısının vaxtında alınmasında mühüm rol oynayır. Çünki yoluxanların yalnız 20 faizində xəstəlik açıq şəkildə özünü büruzə verir. Koronavirusun inkubasiya dövrü çox olduğundan xəstəliyin üzə çıxması 14-28 günədək çəkə bilər. Xaricdən gələn və karantinə yerləşdirilən şəxslər bir neçə mərhələdə testdən keçirilir. Son bir həftə ərzində keçirilən testlərin analizi göstərir ki, xaricdən gələn çoxlu sayda insanda yoluxma halları müşahidə olunub. Həmçinin ilkin dövrdə infeksiya yalnız xaricdən gələn şəxslərdə aşkarlanırdısa, indi həm də ölkə daxilində insanların bir-birini yoluxdurması halları qeydə alınır. İnsanların daxildə bir-birini yoluxdurma hallarının qarşısının alınması üçün də Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür, vətəndaşının sağlamlığı, təhlükəsizliyi üçün vacib qərarlar qəbul edir.

Hazırda ölkədə əhalinin koronavirusa dair müayinələrinin keçirilməsi ilə bağlı tədbirlər davam etdirilməkdədir. Yeni müvafiq laboratoriyalar qurulur, tibb müəssisələri zəruri ləvazimat və preparatlarla təchiz edilir. 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Martın 28-də isə Bakıda "Yeni klinika" tibb müəssisəsi açıldı. Bu müəssisədə də koronavirusa yoluxan və ağır simptomları olan xəstələr müalicə alacaqlar. Orada 575 çarpayı nəzərdə tutulur. Tibb ocağında quraşdırılan avadanlıq istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir.

Prezident İlham Əliyevin aprelin 7-də imzaladığı "Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncama əsasən isə hər birində 200 çarpayı olan modul tipli 6 xəstəxana quraşdırılacaq. Bu məqsədlə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon manatı Maliyyə Nazirliyinə ayrılıb. Sərəncam koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə imzalanıb.

Görülən bütün bu işlər bir daha təsdiq edir ki, Azərbaycanda koronavirusla mübarizə kompleks şəkildə aparılır. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Qebreyesus da ölkələrin liderlərinə ünvanladığı məktubda COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir edib. Bu da koronavirusa qarşı ölkəmizdə aparılan mübarizənin düzgünlüyünü bir daha təsdiqləyir.

Bəli, dövlətimiz koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması, insanların sağlamlığının qorunması istiqamətində lazım olan bütün mühüm tədbirləri həyata keçirir. Görülən işlər, qəbul edilmiş qərarlar isə bir məqsəd güdür - vətəndaşları maksimum dərəcədə qorumaq və bu ağır sınaqdan az itkilərlə çıxmaq.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

# Azərbaycanda koronavirus pandemiyası nəzarət altındadır

## Ölkəmizdə hazırkı qlobal təhlükənin təsirini azaltmaq üçün səmərəli tədbirlər həyata keçirilir

Qlobal pandemiya elan edilən koronavirusa (COVID-19) qarşı dünya səfərbər olub. Bütün ölkələr, ümumilikdə insanlığı təhdid edən bu bəla ilə mübarizə aparır, çarə arayır. Təəssüf ki, hələlik koronavirusu məhv etməyin tibbi çarəsi tapılmayıb. Lakin ondan qorunmağın yolları da mövcuddur ki, bunlara əməl etməklə insan həyatını xilas etmək mümkündür.

Bu baxımdan da Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir.

İnfeksiyaya yoluxmanın sürətini azaltmaq, insanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü martın 31-dən aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən isə həyata keçirilən xüsusi karantin rejimi çərçivəsində ölkədə müəyyən olunan hərəkət məhdudiyyətlərinin tətbiqinə başlanılıb. Həmçinin aprelin 5-dən 20-dək yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları tam şəkildə dayandırılıb.

### Müayinələrin sayına görə Azərbaycan MDB və Cənubi Qafqazda birincidir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəyinə əsasən, COVID-19 pandemiyası ilə mübarizədə əsas şərtlərdən biri müayinələrin aparılması və xəstəlik hallarının vaxtında müəyyənləşdirilməsidir. Mütəxəssislər bu xəstəliyin sürətlə və geniş yayıldığını nəzərə alaraq, COVID-19-la bağlı testlərin keçirilməsinə daha çox diqqət yetirilməsinin vacibliyini qeyd edirlər. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək və onların kontaktda olduğu şəxsləri müəyyənləşdirmək mümkündür.

Hazırda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün bütün imkanlar mövcuddur, o cümlədən diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib.

Virusun laborator diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar, həmçinin Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib.

Aprelin 7-nə olan məlumata əsasən, ölkədə COVID-19-la bağlı 53300 müayinə həyata keçirilib. Əhalinin hər bir milyon nəfərinə düşən müayinənin sayı 5262 nəfər təşkil edir. Bu rəqəm müayinələrin sayına görə Azərbaycanın MDB və Cənubi Qafqazda birinci yerdə olduğunu və bir çox Avropa ölkələrini qabaqladığını göstərir.

Müayinələrin vaxtında və əhatəli şəkildə aparılması xüsusilə həssas risk qrupları-yaşlılar, immunosupresiv xəstələr arasında COVID-19 infeksiyasının yayılmasının qarşısının vaxtında alınmasında mühüm rol oynayır. Hazırda ölkədə əhalinin COVID-19-a dair müayinələrinin keçirilməsi ilə bağlı işlər davam etdirilir, müvafiq laboratoriyalar qurulur, habelə tibb müəssisələri zəruri ləvazimat və preparatlarla təchiz edilir. Bu da onu deməyə əsas verir ki, qısa zaman ərzində müayinə dinamikasının artması müşahidə ediləcək.

Bu, Azərbaycan dövlətinin koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması, insanların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirdiyini əyani şəkildə təsdiq edir.

### Dünyadakı maska qıtlığı ölkəmizdə yaşanmayacaq

Hazırda dünyada koronavirus pandemiyası ilə əlaqədar tibbi ləvazimatlara tələbatın kəskin artması səbəbindən bütün ölkələrdə bu vasitələrin, o cümlədən maskanın qıtlığı yaşanır. Hətta bir çox ölkələrdə, hətta ABŞ-da belə bu vasitələrə ən çox ehtiyacı olan tibbi personalın maska və digər qoruyucularla təmin edilə bilməməsi məsələnin nə qədər vacib və həyati əhəmiyyət daşıdığını ortaya qoyur. Ancaq Azərbaycanda pandemiyanın qarşısının alınması ilə bağlı əsaslı işlər həyata keçirilir. Həm də Prezident İlham Əliyevin diqqəti altında. Aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı da görülən işlərin tərkib hissəsidir. Yeni müəssisə tibbi maska və ləvazimatlara olan tələbatları ödəyəcək.

Prezident İlham Əliyevin fərmanı ilə yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna indiyədək köçürülən ianənin məbləği 110 milyon manatı ötüb. Bu günə kimi fonda 110 813 763 manat vəsait köçürülüb. Xatırladaq ki, Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısın almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.

### Pandemiya şəraitində vətəndaşlar təmkin və anlayış göstərməyə çağırılır

Bakı şəhər Baş Polis İdarəsindən verilən məlumata görə, polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən paytaxtda müvafiq icazə olmadan hərəkət edən şəxslər, eləcə də nəqliyyat vasitələrinin sürücüləri və sərnişinləri yoxlanılır. Müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq, barələrində qanunvericiliyə uyğun tədbirlər davam etdirilir.

İnsanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək, bununla da infeksiyaya yoluxmanın sürətini azaltmaq məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü martın 31-dən aprelin 20-dək gücləndirilib. İnsanların fərdi evlərindən və mənzillərindən çıxışına yalnız təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə gedildikdə, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə icazə verilir: "Pandemiya şəraitində vətəndaşları təmkin və anlayış göstərməyə, karantin tədbirlərinə dəstək olmaq məqsədilə özünü təcrid qaydalarına riayət etməyə çağırırıq".

### Müvafiq icazəsi olmayanlar yoxlanılır

Baş Dövlət Yol Polisi İdarəsi ölkə ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 07.04.2020-ci il saat 00:00-dan 08.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1569 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 8514 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.



Paytaxtda müvafiq icazə olmadan hərəkət edən şəxslər, eləcə də nəqliyyat vasitələrinin sürücüləri və sərnişinləri yoxlanılır. Müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq barələrində qanunvericiliyə uyğun tədbirlər görülür. Bununla belə ölkə ərazisində elan edilən xüsusi karantin rejiminin pozulması hallarına hələ də rast gəlinməkdədir.

Qeyd edək ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilən hüquqi və fiziki şəxslərdən toplanan cərimələrin uçotunun aparılması üçün Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində ayrıca xəzinə hesabı açılıb. Maliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mayis Piriyev bildirib ki, İnzibati Xətalar Məcəlləsinin 25.8-ci bəndinə və "2020-ci il dövlət büdcəsi haqqında" qanuna görə inzibati cərimələr büdcəyə ödənilir: "Karantin rejiminin pozulmasına görə tətbiq olunan cərimələr hesabına əlavə büdcə daxilolmalarının koronavirusla mübarizə tədbirlərinin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur".

### Dünyanın koronavirus mənzərəsi

ABŞ Prezidenti Donald Tramp Ağ evdə keçirilən brifinq zamanı deyib ki, növbəti həftə ölkəsi üçün ağır olacaq, lakin koronavirusun yayılmasına dair vəziyyət tədricən yaxşılaşmağa başlayacaq.

Qeyd edək ki, Cons Hopkins Universitetinin məlumatına əsasən, ABŞ-da yeni növ koronavirusa 386 mindən artıq insan yoluxub, 12 mindən artıq isə vəfat edib.

İspaniyada isə vəziyyət daha acınacaqlıdır. Son sutka ərzində daha 757 nəfər koronavirusdan ölüb. İspaniya Səhiyyə Nazirliyinin məlumatına əsasən, bununla da ölkədə koronavirusdan ölənlərin sayı 14 555 nəfərə yüksəlib.

Almaniyada koronavirus infeksiyası hallarının sayı 103 mini keçib, 1814 nəfər isə ölüb. Ölkə üzrə virusa yoluxanlardan 33,3 min nəfər isə sağalıb.

Hindistanda son sutkada 773 nəfər koronavirusa yoluxub. Virusa yoluxanların ümumu sayı 5194-ə çatıb. Qeyd edək ki, aprelin 21-dək Hindistanda özünütəcrid rejimi tətbiq edilib.

Polşada daha 152 nəfərdə koronavirus aşkarlanıb. Ölkənin Səhiyyə Nazirliyi açıqlayıb ki, qeydə alınan yoluxma hallarının sayı 5000-ə yüksəlib.

Bundan başqa, ötən sutkada virus qurbanlarının sayında da artım müşahidə edilib. Belə ki, son bir gündə virusdan ölənlərin sayı daha 7 nəfər artaraq 136-ya çatıb.

Çilinin Səhiyyə naziri Xayme Manyaliç bildirib ki, ölkəsində 300-ə yaxın həkim koronavirusa yoluxub: "Çili həkimlərin koronavirusa yoluxma sayına görə Latın Amerikasında Braziliyadan sonra ikinci ən böyük ölkədir. Bu günə qədər ölkədə 286 tibb işçisi yeni virusa yoluxub".

Xatırladaq ki, Çilidə 5115 nəfər koronavirusa yoluxub, onlardan 43 nəfəri dünyasını dəyişib.

Çərşənbə axşamı İsraildə koronavirusa yoluxanların sayı 9248 nəfərə çatıb. Yoluxanlardan 65 nəfər ölüb, 770 nəfər isə sağalıb.

Artıq İsraildə yaşayış məntəqələri polis və hərbçilər tərəfindən nəzarətə götürülüb. Çərşənbə günü səhər saat 6-dan cümə axşamı səhərədək vətəndaşlara evlərini tərk etmək qadağan edilib.

Qazaxıstanda yeni növ koronavirusa daha 7 nəfər yoluxub. Bununla da ölkədə koronavirusa yoluxanların ümumi sayı 704 nəfərə çatıb. Ən çox yoluxma halları Nur-Sultan (222) və Almatı (119) şəhərlərində qeydə alınıb.

Ukraynada son sutka ərzində koronavirusa 206 nəfər yoluxub. Ümumilikdə bu ölkədə koronavirusa yoluxanların sayı 1668 nəfərə çatıb. Ukraynada koronavirusdan 35 nəfər sağalıb, 52 nəfər vəfat edib.

Gürcüstanda COVID-19-a yoluxanların sayı 208-ə çatıb. Onlardan 46-sı artıq sağalıb. Hazırda ölkə üzrə karantində 4674, stasionar müalicədə isə 362 nəfər var, virusa yoluxmuş şəxslərdən 3-ü isə vəfat edib.

### Türkiyədə koronavirusa görə yeni xəstəxanalar inşa edilir

Türkiyənin Səhiyyə naziri Fəxrəddin Qoca bildirib ki, İstanbulda Atatürk Hava Limanı və Sancaqtəpədə inşa edilən dövlət xəstəxanalarının hər biri min nəfərlik və təkadamlıq otaqlardan ibarət olacaq. Birmərtəbəli bu xəstəxanaların içərisində əməliyyat və reanimasiya otaqları da quraşdırılacaq.

Nazir deyib ki, bu tipli xəstəxanaların Türkiyənin başqa ərazilərində də inşası nəzərdə tutulur, amma hazırda Türkiyədə bütün xəstəxanalarda reanimasiya şöbəsinin otaqlarının 63 faizi doludur.

F. Qoca evdə karantinə alınan xəstələrin mobil telefonlarına xüsusi proqram yükləməklə onların daima operativ nəzarətində saxlanacağını da vurğulayıb.

Aprelin 7-nə olan məlumata əsasən Türkiyədə yeni növ koronavirusdan 725 nəfər ölüb, 34109 nəfər yoluxub. Onlardan 1474 nəfəri reanimasiyadadır, 1582 nəfərin isə müalicəsi müsbət nəticə verib.

Rusiyada son sutka ərzində koronavirusa 1175 yeni yoluxma qeydə alınıb, ümumi yoluxanların sayı 8672 nəfərə çatıb. Yoluxma 81 regionu əhatə edir.

Son sutka ərzində ölənlərin sayı isə 5 nəfərdir. Rusiya ərazisində indiyədək koronavirusdan 63 nəfərin öldüyü açıqlanıb. Sağalanların ümumi sayı 583 nəfərdir.

Ermənistanda isə koronavirusa yoluxanların sayı 881 nəfərə çatıb, bir nəfər isə ölüb. Bununla da Ermənistanda koronavirusdan ölənlərin sayı 9 nəfərə yüksəlib.

### Uhanda həyat normal axarına dönür

Virusun "vətən"i Çində isə vəziyyət getdikcə normallaşır. Belə ki, pandemiyanın yayıldığı Hubey əyalətinin paytaxtı Uhan şəhərində karantin ləğv edilib. 76 günlük karantindən sonra şəhərin sərhədləri yenidən açılıb. Bu gündən etibarən nəhayət, şəhərdə qatarların hərəkəti və təyyarə uçuşları bərpa olunub, magistral yollar yenidən açılıb. Lakin şəhər daxilində bəzi məhdudiyyətlər hələ də qüvvədə qalacaq. Rəsmilər növbəti yoluxma təhlükəsinin hələ də qalmaqda olduğu barədə xəbərdarlıq edirlər.

Çinin gigiyena və səhiyyə üzrə Dövlət Komitəsindən bildirilib ki, ölkədə koronavirusa yoluxanlardan 94,4 faizi sağalıb, son sutka ərzində sağalanların sayı 112 nəfər təşkil edir. Məlumata əsasən, xaricdən ölkəyə qayıdan 1042 vətəndaşda koronavirus aşkarlanıb, son sutka ərzində 59 nəfərdə aşkar edilib.

Ölkədə koronavirusa yoluxanların ümumi sayı 81,8 mini ötüb, 3,3 mindən artıq insan ölüb.

### Koronavirus infeksiyasına qarşı 20 namizəd peyvənd hazırlanıb

İnsanlarda koronavirusa yoluxma halları ilə bağlı müəyyən təşvişlər var. Amma bunlardan bir çoxu səbəbsizdir. TƏBİB-in məlumatına əsasən, koronavirusun qan köçürülməsi ilə ötürülə biləcəyinə dair heç bir məlumat və ya sübut yoxdur. Eyni zamanda qeyd edilir ki, dünyada koronavirus da daxil olmaqla hər hansı bir tənəffüs virusuna qanla yoluxma hallarına rast gəlinməyib, koronavirusun qan komponentləri ilə yoluxduğu təsdiqlənməyib.

Eyni zamanda koronavirus bəlasının nə zaman sonlanacağı ilə bağlı suallar da bütün insanlığı düşündürür. Bununla əlaqədar ÜST-ün Rusiyadakı nümayəndəsi söyləyib ki, dünyada koronavirus pandemiyasının sonunu təxmin etmək hələ tezdir, iki həftədən sonra bu mövzu barədə danışmaq mümkün olacaq.

O bildirib ki, hazırda müxtəlif ölkələrdə xəstəliyin aradan qaldırılması məqsədilə analizlər və modelləşdirmə işləri aparılır: "Xəstəliyin yükünün azaldılması üçün mümkün vasitələrdən istifadə etməliyik. Hər şey görülən tədbirlərdən və virusun əhalidən necə keçməsindən asılı olacaq. Bəlkə də bu barədə iki həftədən sonra danışmaq mümkün olacaq".

Koronavirus əleyhinə dərmana gəldikdə, ÜST nümayəndəsi qeyd edib ki, hazırda klinik araşdırmalar aparılır: "Bu günədək koronavirus infeksiyasına qarşı 20 namizəd peyvənd hazırlanıb. Onların klinik araşdırması davam edir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Biz birlikdə güclüyük!

# Məqsəd əhalinin sağlamlığını və təhlükəsizliyini təmin etməkdir

*Əvvəli 1-ci səh.*

Hər kəs karantin rejiminin tələblərinə əməl etməlidir

Təbii ki, xəstəliyin yayılmasının qarşısının alınmasında hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşür. Vətəndaşlar evdə qalarlarsa, karantin rejiminin tələblərinə əməl edərlərsə, koronavirus infeksiyasının da yayılmasının qarşısı alınar. Prezident İlham Əliyev bütün çıxışlarında hər bir vətəndaşı məsuliyyətli olmağa çağırır. Son olaraq aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciət edən Prezident deyib: "Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var ki, bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Aprelin 5-nə qədər vaxtaşırı qəbul edilmiş qərarlar və yeni qaydalar bu məqsədi daşıyır. Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik".

Bəli, qlobal problemə çevrilən koronavirus pandemiyası bir çox dövlətlər üçün təhdidə çevrilib. İtaliya, İspaniya, ABŞ, Fransa kimi dövlətlər nə qədər inkişaf etmiş səhiyyə sisteminə malik olsalar da, koronavirus infeksiyasının sürətlə yayılması onları çətin duruma salıb. Məhz ilk vaxtlardan lazımi sosial izolyasiya tədbirlərinin həyata keçirilməməsi, eləcə də vətəndaşların bu təhlükəyə etinasız və biganə yanaşmaları bu ölkələrdə ciddi fəsadlar yaradıb. Azərbaycanda vaxtında sosial izolyasiya və karantin rejimi tətbiq olundu. İndi əsas məsuliyyət, qeyd etdiyimiz kimi, vətəndaşların üzərinə düşür. İlham Əliyevin xalqa müraciətində qeyd etdiyi kimi, "İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar".

Karantin rejiminin pozulmasına görə cəzanın sərtləşdirilməsinin yeganə məqsədi isə məhz vətəndaşlarımızı qorumaqdır. Ona görə indiki həssas durumda hər bir vətəndaş maksimum anlayış nümayiş etdirməli, karantin rejiminin tələblərini gözləməlidir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Paytaxtda genişmiqyaslı dezinfeksiya işləri davam etdirilir





Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi məqsədilə Bakı şəhərinin bütün rayonlarında Nazirlər Kabinetində yaradılmış Operativ Qərargahın qərar və təlimatlarına uyğun olaraq çoxşaxəli tədbirlər həyata keçirilir.

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin, paytaxt rayonlarının kommunal-təsərrüfat xidmətlərinin, aidiyyəti qurumların əməkdaşları və xüsusi texnikası tərəfindən müvafiq qrafik əsasında, gündəlik olaraq səhər və axşam saatlarında küçə və prospektlərin xüsusi kimyəvi vasitələr və yeni yuyucu gel vasitəsilə yuyulması aparılır.

Gündə iki dəfə departamentin balansında olan 11400-dən çox yaşayış binalarında, buradakı ümumi istifadə yerlərində, giriş blokları və pilləkən marşlarında, sakinlərin daha çox istifadə etdiyi yerlərdən olan lift kabinələrində və onların ətrafında, məişət tullantılarının atıldığı konteyner meydançalarında, həyət və yaşayış məhəllələrində, buradakı idman-əyləncə qurğularında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər görülür. Dezinfeksiya və maarifləndirmə işləri paytaxtın qəsəbələrində də aparılır.

Bu işlərin vaxtaşırı olaraq paytaxtdakı 2000-dən çox kooperativ bina və yaşayış komplekslərində də aparılması təmin edilir.

Ərazidəki tibbi-profilaktiki işlərlə yanaşı, Bakı Şəhər Ticarət və Xidmət Departamenti və Yaşıllaşdırma Təsərrüfatı Birliyinun əməkdaşları tərəfindən paytaxtdakı idarə, təşkilat, ictimai-iaşə və digər özəl kommersiya qurumlarının inzibati binalarının, yol və küçələrin kənarlarında yaradılmış yaşıllıq guşələrinə qulluq göstərilir, ofis mərkəzləri qarşısında qoyulmuş gül dibçəklərindəki güllər sulanır. Paytaxt rayonlarının icra hakimiyyəti əməkdaşları, rayonlarda yaradılan operativ qərargahların üzvləri, könüllülər və hüquq mühafizə orqanları əməkdaşları ərazidə mütəmadi reydlər keçirərək, vətəndaşları ciddi ehtiyac olmadıqca evdən çıxmamaları, ehtiyac yarandıqda isə elektron icazə alınması qaydasında çıxa biləcəkləri barədə məlumatlandırır, Nazirlər Kabineti Operativ Qərargahının son qərarları və göstərişlərinin icrası ilə bağlı əhali arasında maarifləndirmə-təbliğat işləri aparılır. Həmçinin icra hakimiyyətləri, bələdiyyələr, könüllülər tərəfindən yaşı 65-dən yuxarı, tənha və yaşlı vətəndaşlar daim nəzarətdə saxlanılır, onlara ərzaq yardımları çatdırılır, lazımi sosial xidmətlər göstərilir. Bütün təbliğat, maarifləndirmə, dezinfeksiya işləri və yardımların göstərilməsi gündəlik davam etdirilir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Qazax Sement Zavodunun kollektivi imkansız ailələri sevindirir



Ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən verilən qərarlar Qazax rayonunda da uğurla icra olunur. Xüsusilə Heydər Əliyev Fondunun bu infeksiyanın qarşısının alınması üzrə tədbirlər çərçivəsində başladığı sosial layihəyə indi rayonda fəaliyyət göstərən onlarca müəssisə də qoşulmuşdur. Belə müəssisələrdən biri də "Qazax Sement Zavodu" MMC-dir.

Müəssisənin kollektivi "Evdə qal, sağlam ol!" çağırışını əldə rəhbər tutaraq Qazaxda yaşayan və yaşı 65-dən yuxarı olan tənha insanlara yardım etməyə başlamışdır. Kollektiv qısa vaxt ərzində 129 nəfəri ərzaq məhsulları ilə təmin etmişdir. Xeyirxah iş rayonun Bala Cəfərli, Quşçu Ayrım, Qarapapaq və sair kəndlərində də həyata keçirilmişdir. Özündə həmrəyliyi, birliyi əks etdirən bu təşəbbüs ziyarət olunan sakinlər tərəfindən yüksək qiymətləndirilmiş və onları gündəlik tələbat malları ilə təmin edən zavod rəhbərliyinə razılıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Türk Ticarət və Sənaye Palatasının (TCCI) təşəbbüsü ilə COVID-19 pandemiyası ilə mübarizə mövzusunda videokonfrans keçirilmişdir




Aprelin 7-də Türk Ticarət və Sənaye Palatasının (TCCI) təşəbbüsü ilə palatanın üzv qurumlarının, o cümlədən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) rəhbərliyinin iştirakı ilə COVID-19 pandemiyası ilə mübarizə mövzusunda videokonfrans keçirilmişdir.

Konfransda ASK prezidenti Məmməd Musayev ilə yanaşı, Türk Ticarət və Sənaye Palatasının və TOBB-un prezidenti Rifat Hisarcıklıoğlu, Türk Şurasının Baş katibi səfir Bağdat Amreyev, Türk Ticarət və Sənaye Palatasının Baş katibi Adem Kula, Qazaxıstan Respublikasının Sahibkarların Milli Palatasının (Atameken) sədri Ablay Mirzahmedov, Özbəkistan Respublikası Ticarət və Sənaye Palatasının (CCIU) sədri Adham İkramov, Qırğızıstan Respublikasının Ticarət və Sənaye Palatasının vitse-prezidenti xanım Rimma Apasova, Macarıstan Ticarət və Sənaye Palatasının (HCCI) Beynəlxalq Əlaqələr Komitəsinin sədr müavini Andreas Rev və digər rəsmi şəxslər iştirak etmişlər.

Konstruktiv şəraitdə keçən videokonfrans zamanı Türk Şurasının (TŞ) üzv dövlətlərinin ən iri biznes qurumları COVID-19 pandemiyası ilə mübarizə sahəsində bu ölkələrdə aparılan effektiv tədbirlər kompleksi barədə ayrı-ayrılıqda təqdimatla çıxış etmişlər. Azərbaycan Sahibkarlar Konfederasiyasının Prezidenti Məmməd Musayev qeyd edib ki, COVID-19-un qarşısının alınması üçün Azərbaycanda həyata keçirilən çoxşaxəli tədbirlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısı həmişə olduğu kimi, bu çətin günlərdə də əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi qayğı ilə yanaşır. Prezidentin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları qısa müddətdə səfərbər olaraq ölkədə qlobal pandemiyaya qarşı mübarizə tədbirlərini gücləndirmişlər.

Eyni zamanda, pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılmasını nəzərdə tutan Prezident İlham Əliyevin yeni iqtisadi-sosial paketi ilə hökumət zərər çəkən sahələrdə çalışan insanların problemlərinə diqqət yetirdi. Azərbaycanda iqtisadi sabitliyin təmin edilməsinə, məşğulluqla bağlı problemlərin həllinə, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına ən azı 2,5 milyard manat ayrılmışdır. Azərbaycanda 600 min işçinin, o cümlədən də fərdi sahibkarların dövlət hesabına maliyyələşdirilməsi qərara alınmışdır. Yəni onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürdü. Bu genişmiqyaslı iqtisadi və sosial paket həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, həm də həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaq.

Daha sonra Türk Şurasının üzv dövlətlərində palata və konfederasiyaların, ümumən özəl sektorların, xüsusilə səhiyyə sektorunun COVID-19 pandemiyası ilə mübarizədə rolu barədə məlumat verilmiş, hazırkı dövrdə təcrübə mübadiləsi üçün distant rəqəmsal platformalardan mütəmadi istifadənin zəruriliyi diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, Türk Ticarət və Sənaye Palatasının üzvlərinin müvafiq üzv dövlətlərin əhalinin, milli iqtisadiyyatları və müəssisələrinin COVID-19 pandemiyasının yaxın və uzunmüddətli təsirlərinə hazırlamaq üzrə müvafiq hökumətlər üçün təkliflər və tövsiyələr paketinin birgə əməkdaşlıq şəraitində hazırlanması böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, üzv ölkələr arasında açıq nəqliyyat xətləri ilə ticarət əlaqələrinin fasiləsiz aparılmasının təmin edilməsi, üzv ölkələrdə qida təhlükəsizliyinin davamlı təmini üçün birgə qabaqlayıcı tədbirlərin görülməsi, habelə ən çox iqtisadi təsirlərə məruz qalmış sektorların, o cümlədən, turizm, loqistika, xidmət sektorlarının, kiçik və orta sahibkarlıq subyektlərinin güclənməsi məqsədilə postpandemiya dövrü üçün tədbirlər üzrə təcrübə mübadiləsinin böyük əhəmiyyəti vurğulanmışdır. Bu mənada post pandemiya dövründə Türk Şurası dövlətlərindəki biznes subyektlər üçün stabilləşmə və ixrac potensialının artırılması üçün maliyyə institutları tərəfindən dəstəyin xüsusi önəmi barədə bəhs edilmiş və Macarıstan Respublikasında Eximbank tərəfindən nəinki macar iş adamlarına, eləcə də Türk Şurasının üzv dövlətlərindəki sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin mövcud olması iştirakçıların marağına səbəb olmuşdur. Bununla əlaqədar, postpandemiya dövründə Türk Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə Macarıstan Respublikasına, Cənubi Koreya Respublikasına birgə biznes səfərlərin və müvafiq forumların təşkili barədə ilkin razılıq əldə edilmişdir.

Müzakirə olunan məsələlər sırasında Türk Ticarət və Sənaye Palatasına beynəlxalq hüquqi statusun verilməsi istiqamətində atılan addımlar və müvafiq proseslərə toxunulmuşdur.

Videokonfransın sonunda üzv təşkilatlar arasında əməkdaşlıq əlaqələrinin digər perspektiv istiqamətləri müzakirə edilmiş və Türk Şurasının Dövlət Başçılarının Növbədənkənar Sammitinin nəzərdə tutulması ilə bağlı üzv təşkilatlar tərəfindən müvafiq təkliflərin formalaşdırılaraq qısa zamanda təklif edilməsinin zəruriliyi bildirilmişdir.

***"Azərbaycan"***

# Əhalinin sağlamlığının qorunması ən ümdə vəzifədir

Koronavirus pandemiyası bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurətini yaradıb. Bu təhlükəli virusun yayıldığı bütün ölkələrdə tələbatın kəskin artması səbəbindən tibbi ləvazimat və qoruyucu vasitələrin, həmçinin maskanın böyük qıtlığı yaşanır. Belə bir vaxtda istehsalçı ölkələr tibbi maska, eyni zamanda, istehsal avadanlığı və xammalın ixracını dayandırıblar.

Problemlərin aradan qaldırılması, əhalinin sağlamlığının təmin olunması məsələsinə Azərbaycan dövləti xüsusi diqqət və həssaslıqla yanaşır. Ölkəmizdə koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısının tapşırığı ilə qısa müddətdə aidiyyəti dövlət qurumları tibbi maska istehsalı avadanlığının və xammalın respublikamıza gətirilməsinə nail olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

Dövlət başçısı müəssisə ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciət edib. O, respublikamızda tibbi maska istehsalının başlanmasını çox əlamətdar hadisə kimi dəyərləndirib. Bildirib ki, indi dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda tibbi maska çatışmazlığı var və biz bu sahədə daim idxaldan asılı idik. Prezident İlham Əliyev indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsalın təşkil edildiyini vurğulayıb.

Koronavirusla mübarizədə maskalardan istifadənin xüsusi əhəmiyyət daşıdığı bir vaxtda dünyanın bir çox ölkələrində bu sahədə problemlər meydana çıxıb. Prezident İlham Əliyev Azərbaycanda da qıtlıq yarandığını, bəzi hallarda apteklərdə tibbi maskalar olmadığını nəzərə çatdırıb. O, bu istehsalın bizə özümüzü təmin etməyə imkan verəcəyini və koronavirusla mübarizə başa çatandan sonra da Azərbaycanın artıq idxaldan asılı olmayacağını açıqlayıb.

Dövlət başçısı qısa müddətdə Azərbaycanda dezinfeksiya vasitələrinin istehsalının da təşkil edildiyini vurğulayıb: "Amma burada üstünlüyümüz ondan ibarət idi ki, ölkəmizdə bir neçə spirt zavodu var və bu spirt zavodlarında dezinfeksiya vasitələri istehsal edilməyə başlanmışdır və artıq satışa verilir. Beləliklə, mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün dəfələrlə qeyd olunub ki, vətəndaşlar daha da məsuliyyətli olmalıdırlar və şəxsi gigiyenasına fikir verməlidirlər. Ancaq bunu təmin etmək üçün vasitələr olmalıdır və bu gün bu vasitələr artıq bazara təqdim edilir - tibbi maskalar və dezinfeksiya vasitələri".

Prezident İlham Əliyev istehsala nail olunmaqla işlərin bitmədiyini nəzərə çatdırıb. Bildirib ki, indi əsas məsələlərdən biri apteklərdə və digər ticarət yerlərində süni qiymət artımının olmasıdır. Ölkə başçısı deyib: "Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək".

Son illər ərzində yüzlərlə, bəlkə də mindən çox sənaye müəssisəsinin açılışında iştirak etdiyini, ancaq bu istehsalat sahəsinin xüsusi əhəmiyyət daşıdığını söyləyən Prezident İlham Əliyev açıqlayıb: "Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür".

Hazırda dünyanın inkişaf etmiş ölkələrində hər gün koronavirusa yoluxmuş yüzlərlə insan həyatını itirir. Heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılmasının geniş vüsət almadığını vurğulayan ölkə başçısı görülmüş işlərdən danışıb.

Azərbaycan dünyada koronavirus xəstəliyinə yoluxanların aşkara çıxarılması üçün ən çox test keçirən ölkələrdəndir. Prezident İlham Əliyev deyib: "Bu, bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək və eyni zamanda, özümüzü böyük bəladan qoruya bilək. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərmişdir. Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var ki, bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Aprelin 5-nə qədər vaxtaşırı qəbul edilmiş qərarlar və yeni qaydalar bu məqsədi daşıyır. Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik".

Prezident nəzərə çatdırıb ki, hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Həmin xəstəxanaların arasında martın sonunda açılmış, ən müasir xəstəxanamız - "Yeni klinika" da var. Eyni zamanda, bu il martın əvvəlində bölgələrdə Prezident İlham Əliyevin iştirakı ilə açılmış xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilib. Hazırda Qazax, Goranboy və Şəmkir rayonlarında yerləşən ən müasir xəstəxanalar koronavirus xəstələrinin müalicəsi ilə məşğuldur. Ölkə başçısı yaxın zamanlarda Bakıda və bir neçə bölgədə müasir xəstəxanaların yaradılmasının nəzərdə tutulduğunu da açıqlayıb. Qeyd edib ki, bu xəstəxanalar yeni texnologiyalar əsasında inşa ediləcək.

Ciddi karantin rejiminin ayın 20-nə qədər qüvvədə qalacağını, ondan sonra yaranacaq vəziyyətə uyğun şəkildə addımlar atılacağını bildirən Prezident İlham Əliyev Azərbaycan dövlətinin hər bir vətəndaşının həyatını, sağlamlığını qorumaq üçün lazımi tədbirləri həyata keçirdiyini və bundan sonra da qətiyyətlə öz yolunu davam etdirəcəyini bir daha nəzərə çatdırıb. Ancaq insanlar da məsuliyyətli olmalı, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Prezident İlham Əliyev bir daha ölkə vətəndaşlarına müraciət edib: "Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!"

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Xəstəxanalarda yenidənqurma işlərinə başlanılıb

Koronavirus pandemiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Sumqayıt şəhərində də təxirəsalınmaz tədbirlər həyata keçirilir. Şəhər sakinlərinin sağlamlıqlarının qorunması istiqamətində ciddi addımlar atılır.

Sumqayıtda əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi məqsədilə xəstəxanalarda yenidənqurma işləri aparılır. 1 nömrəli Sumqayıt Şəhər Xəstəxanasının ərazisində əhaliyə tibbi xidmətlərin göstərilməsi məqsədilə yeni infrastruktur yaradılır. Bu məqsədlə dövlət sifarişi ilə 1 nömrəli Sumqayıt Şəhər Xəstəxanası üçün müvafiq yer ayrılıb.

Layihələrin mühüm əhəmiyyəti nəzərə alınaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq əmri ilə buradakı ağacların bir qisminin köçürülməsinə və xəstəxana ərazisinin genişləndirilməsinə başlanılıb. Nazirlik tərəfindən köçürülməsi mümkün olmayan bir neçə ağacın isə götürülməsinə rəy verilib.

Ayrılmış ərazidə əlavə 500 ağacın əkilməsi ilə bağlı aidiyyəti qurumlara tapşırıq verilib və ağacların əkilməsinə başlanılıb. Son bir neçə gündə 100-ə yaxın fidan torpağa basdırılıb. Bütün bu kimi layihələr ekoloji tarazlığın qorunmasına və kritik şəraitlərdə xəstəxanalardan istifadədə çətinliklərin yaranmamasına hesablanıb.

***Akif ƏLİYEV, "Azərbaycan"***

**Biz birlikdə güclüyük!**

# Azərbaycan bu çətin günlərdə də sosial dövlət olduğunu sübut edir





*Əvvəli 1-ci səh.*

Amma korona adlı virusdan asılı olan yaman günlərin ömrünün uzun çəkməyəcəyinə ümidimizi üzmürük. Həmin ümidi isə bizə ilk gündən COVID-19-a amansız savaş elan edən dövlətimiz verib. Bu yolda dövlətin hansı tədbirlər gördüyünü sadalamaq fikrindən uzağıq. Onların hamısını nəinki eşitmişik, hətta günü bu günəcən yaşayırıq. Və yaşaya-yaşaya dərk edirik ki, getdikcə sərtləşdirilən həmin tədbirlər bizi evlərimizə qovsa da, koronanın qənimidir.

Lakin Azərbaycan dövləti təkcə lənətə gəlmiş məlum virusla mübarizə aparmır, həmçinin onun sosial həyatımıza və iqtisadiyyatımıza vurduğu ziyanın minimuma endirilməsi üçün tədbirlər görür. “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə Baş Nazirin sərəncamının bu baxımdan mühüm əhəmiyyəti var. Əvvəlcədən qeyd edək ki, əhalinin çoxdan gözlədiyi bu sənəddə iş yerlərinin, eləcə də sosial sabitliyin qorunması istiqamətində vəsaitlərin ayrılması nəzərdə tutulur. Sərəncamda birinci istiqamət pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqlarının müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsidir ki, burada da məqsəd iş yerlərinin sayının azaldılmasının qarşısını almaq və həmin sektorda çalışanların işləməsələr belə əməkhaqlarının ödənilməsini təmin etməkdir. Sərəncama əsasən, hər hansı vətəndaş kiçik, orta və iri sahibkarlıq subyektində muzdlu işçi kimi əməkhaqqı müqaviləsinə malikdirsə, bu zaman ona dövlət tərəfindən maddi dəstək veriləcək.

Sənəddə bildirilir ki, muzdla çalışan belə işçilərin sayı 300 min nəfərdir və onlara 215 milyon manat vəsait ayrılacaq. Bu isə o deməkdir ki, hər bir muzdla çalışan işçi orta hesabla 716 manat dövlətdən dəstək alacaq. Mütəxəssislər bildirirlər ki, bu zaman əməkhaqqı səviyyəsindən asılı olaraq həmin məbləğ dəyişə bilər. Amma bütün hallarda dövlətin bu dəstəyindən 300 min muzdlu işçinin faydalanacağı şübhəsizdir.

Sənəddə fərdi sahibkar kimi fəaliyyət göstərən vətəndaşlar da yardımdan kənar qalmayıblar. Bu cür sahibkarlara proqramda 80 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Onu da qeyd edək ki, belə sahibkarların da sayı 300 min nəfərdir. Yəni hər bir VÖEN-lə işləyən bu cür fərdi sahibkarların hər biri orta hesabla 267 manat dövlət yardımı ala biləcək, təbii ki, yenə də müxtəlif fərqlərlə.

Tədbirlər Planında vergi güzəştləri də nəzərdə tutulur və onlar bu aydan başlayaraq tətbiq olunacaq. Sənəddə fərdi sahibkarlar üçün sadələşmiş vergi üzrə müddətli güzəştin tətbiqi planlaşdırılır. Bu o deməkdir ki, VÖEN-lə işləyən belə sahibkarın illik dövriyyəsi 200 min manatdan çox deyilsə, o, bu zaman sadələşmiş vergi subyekti kimi güzəşt əldə edəcək.

Sənəddə həmçinin əmlak və torpaq vergisindən müddətli azadolmalar, eləcə də mənfəət və gəlir vergisinə güzəştlər edilməsi də nəzərdə tutulur.

Bunlardan əlavə, təsdiqlənən Tədbirlər Planında işləməyən ölkə vətəndaşlarına da vəsait ayrılması qərara alınıb. İlk növbədə nəzərə çatdıraq ki, sərəncama əsasən, müvəqqəti məşğulluğun təmin edilməsi üçün koronavirusun aktiv olduğu dövrdə 50 min haqqı ödənilən yeni iş yeri açılacaq. Bu məqsəd üçün büdcədən 30 milyon manat vəsait ayrılıb. Həmçinin məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyata alınmış şəxslərə yaşayış minimumu həcmində, yəni 190 manat birdəfəlik ödəniş veriləcək.

Yeri gəlmişkən, qeyd edək ki, ölkə üzrə belə şəxslərin sayı 200 min nəfərdir. Sosial baxımdan həssas əhali qrupuna aid olan ailələrin ali məktəblərdə oxuyan tələbə övladlarının təhsil haqlarının dövlət tərəfindən ödənilməsini və bu məqsəd üçün büdcədən 40 milyon manat vəsaitin ayrılmasını, eləcə də aprel və may ayları üçün elektrik enerjisinin istehlakına tətbiq edilən limitin artırılmasını da nəzərə alsaq, əminliklə deyə bilərik ki, Azərbaycan bu çətin günlərdə də sosial dövlət olduğunu növbəti dəfə təsdiqləyir.

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***

# Bu bəlaya qalib gələcəyik!

**Təhlükəli və vahiməli COVID-19 dünyanı dolaşmaqda və yeni-yeni fəlakətlər gətirməkdədir. Son günlər Azərbaycanda da bu infeksiyaya yoluxma halları artır. Bu, təbii ki, böyük narahatlıq doğurur. Hamı ölkədə koronavirus infeksiyasına yoluxma hallarının artmasının səbəblərini bilmək istəyir.**

Regionun və dünyanın təcrübəsi göstərir ki, infeksiyanın sürətlə yayılması və pik həddə doğru hərəkət etməsi bir çox obyektiv və subyektiv amillərlə bağlıdır.

Xatırladaq ki, Avropada, xüsusən İtaliya və İspaniyada yoluxma halları və ölüm faktları artan xətt üzrə inkişaf edəndə, bu qitənin bir çox ölkəsində nisbi sakitlik hökm sürürdü. İndi isə koronavirus Avropanın çoxlu sayda ölkəsində tüğyan edir.

Avropa ilə müqayisədə ABŞ-da yayılma və ölüm halları gec başladı. İndi isə bu ölkə az qala koronavirus pandemiyasının əsarəti altındadır.

Azərbaycanda da infeksiyaya yoluxmanın sayının məhz indi artmasının bir sıra səbəbləri var. Əvvəla, ilkin dövrdə infeksiya faktları müəyyən olunanda Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından məhdud şəkildə testlər alırdı və həmin vaxt mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə isə ölkəmiz özü kifayət qədər testlər almağa başladı.

İlk vaxtlar ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi gündəlik müayinələrin sayı 1000-dən çoxdur. Artıq 35 mindən çox test keçirilib. İmkanların genişlənməsi yoluxma hallarını müəyyənləşdirməyi xeyli asanlaşdırıb.

Digər tərəfdən, Azərbaycan yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alıb.

Mütəxəssislərin fikrincə, koronavirusun inkubasiya dövrü o qədər də qısa deyil, yeni xəstəliyin üzə çıxması 28 günədək çəkə bilər.

Məlum olduğu kimi, xaricdən gələn və karantinə yerləşdirilən şəxslərlə bağlı bir neçə mərhələdə test aparılır. Son bir həftə ərzində keçirilən testlər xaricdən gələn çoxlu sayda insanda yoluxma faktını təsdiq edir.

Nəhayət, ilkin dövrdə infeksiya yalnız xaricdən gələn şəxslərdə aşkarlanırdı. İndi həm də ölkə daxilində insanların bir-birini yoluxdurması halları qeydə alınır.

COVID-19-un qarşısının alınması, xalqımızın bu bəladan sağ-salamat, minimum itkilərlə çıxması üçün Azərbaycan dövləti çoxsaylı qabaqlayıcı tədbirlər görüb və onlar davam edir. Bu tədbirlər getdikcə geniş miqyas alır, xalqımızın sağlamlığına və mənafeyinə xidmət edir.

Bizdən tələb olunan isə gigiyenik qaydalara riayət etmək, karantinlə bağlı qoyulan qaydalardan kənara çıxmamaqdır. Hamı vətəndaş həmrəyliyi nümayiş etdirməlidir.

Bu çətin günlərdə “Evim mənim - qalam mənim” deyimi tez-tez yada düşür. Biz bu gün evimizi tərk etməməliyik ki, sabah iş yerlərimizə, doğmalarımızla görüşə, toya, konsertlərə gedə bilək. Dövlət başçısı, İlham Əliyev də xalqı buna çağırdı. Birinci vitse-prezident Mehriban xanım Əliyeva bir ana kimi səsini ucaldaraq xalqı təmkin, səbir göstərməyə, qaydalara riayət etməyə səslədi.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Pandemiyadan zərər çəkmiş sahibkarlara maliyyə dəstəyinin göstərilməsi mexanizmləri açıqlanıb

**İqtisadiyyat Nazirliyi koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahibkarlara maliyyə dəstəyinin göstərilməsi mexanizmlərini açıqlamışdır. Bu barədə nazirliyin yaydığı məlumatda bildirilib:**

“Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamının 10.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 4 aprel 2020-ci ildə müvafiq Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında icrası İqtisadiyyat Nazirliyinə həvalə edilmiş tədbirlərin həyata keçirilməsi 3 mərhələyə bölünüb. İlkin mərhələdə pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi, fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, habelə iqtisadi fəallığın qorunması məqsədilə vergi stimullarının verilməsi nəzərdə tutulur”.

İqtisadiyyat Nazirliyi ilkin mərhələdə pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi ilə bağlı aşağıdakıları vergi ödəyicilərinin diqqətinə çatdırır:

Pandemiyadan zərər çəkmiş sahələrdə iş yerlərinin sayının azaldılmasının qarşısının alınması məqsədilə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi mexanizmi çərçivəsində:

Bu tədbir pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min nəfər muzdlu işçinin (əmək müqaviləsi olan) əməkhaqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsini nəzərdə tutur. Bu mexanizm çərçivəsində vergi ödəyicilərinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) mövcud olan elektron kabinetləri vasitəsilə təqdim etdikləri müraciətlər əsasında, qısa müddət ərzində onların işçilərinə ödənilməli olan əməkhaqqının və ona müvafiq sosial sığorta haqlarının müəyyən hissəsi işəgötürənlərin bank hesablarına köçürüləcək.

Vəsaitlərin ödənilməsi bu qaydada həyata keçiriləcək:

Qeydiyyatda olan bütün vergi ödəyicilərinə “Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı” barədə onların şəxsi elektron kabinetinə bildirişlər və mobil telefonlarına SMS-lər göndəriləcək. Vergi ödəyiciləri İnternet Vergi İdarəsindəki şəxsi kabinetində “Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı” bölməsindən “əmək ödənişləri üzrə müraciət” alt bölməsinə daxil olaraq buradakı müvafiq alt bölmədə olan müraciət formasını elektron qaydada doldurmalıdır.

Müraciət formasında reyestr məlumatları (vergi ödəyicisinin adı, VÖEN-i, bank hesabları, 1 mart və müraciət tarixinə əmək müqavilələri üzrə işçi sayları) avtomatik əks olunacaq. Vergi ödəyiciləri müraciətdə pandemiya üzrə zərər çəkmiş fəaliyyət sahələrini, təsərrüfat subyektlərini (obyektlərini), zərər çəkmiş sahə üzrə işçi sayı və əməkhaqqı fondu barədə əlavə məlumatları özləri onlayn qaydada doldurmalıdır. Bu məlumatlar uçot baza məlumatları ilə avtomatik qaydada yoxlanılır.

Sistem tərəfindən uyğunsuzluq aşkar edilmədikdə, məlumatlar avtomatik olaraq qəbul edilir və bu barədə vergi ödəyicisinə bildiriş göndərilir.

Nazirlik qeyd edir ki, müraciətin yoxlanması zamanı sistem tərəfindən uyğunsuzluqlar aşkar edilə bilər. Bu, vergi ödəyicisinin fəaliyyət sahəsinin və təsərrüfat subyektinin (obyektinin) pandemiya üzrə zərər çəkmiş sahəyə uyğun gəlməməsi, müraciət tarixinə işçi sayında azalmaların olması, riskli vergi ödəyiciləri ilə əməliyyatların aparılması kimi hallardır. Reyestr məlumatları üzrə uyğunsuzluq aradan qaldırılarsa, vergi ödəyicisinə şəxsi kabinet vasitəsilə onlayn qaydada yenidən müraciət etmək imkanı yaradılacaq.

Vergi ödəyicilərinə ödəmələr aprel və may ayları daxil olmaqla 2 mərhələdə aparılacaq.

Nazirlik xüsusi olaraq vurğulayır ki, bank tərəfindən ayrılan maliyyə dəstəyi vəsaitinin yalnız əməkhaqqı ödənişləri üzrə köçürülməsinə icazə verilir. Vergi ödəyiciləri bu vəsaitlərdən hər hansı digər məqsədlər üçün istifadə edə bilməzlər və bu məsələyə ciddi nəzarət olunacaq.

Muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi zamanı ölkə üzrə orta aylıq əməkhaqqı (712 manat) əsas meyar olaraq götürüləcək. Əgər müəssisədə çalışan işçilərin bir qismi orta aylıq əməkhaqqından daha yuxarı əməkhaqqı alırsa, o zaman onlara kompensasiyalar orta aylıq əməkhaqqı həddini aşmamaq şərtilə hesablanacaq.

Maliyyə vəsaitlərinin ayrıldığı vergi ödəyiciləri barədə məlumatlar İqtisadiyyat Nazirliyinin və onun qurumlarının internet resursları və KİV vasitəsilə ictimaiyyətə çatdırılacaq.

Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi mexanizmi çərçivəsində:

Bu mexanizm çərçivəsində pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində sahibkarlıq fəaliyyəti göstərən 300 min fərdi sahibkara dövlət tərəfindən 80 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. Bu maliyyə yardımı 2019-cu ildə vergilərini, məcburi dövlət sosial sığorta haqlarını və işsizlikdən sığorta haqlarını ödəmiş vergi ödəyicilərinə şamil ediləcək. Maliyyə dəstəyinin mümkün qədər qısa müddət ərzində göstərilməsini təmin etmək üçün fərdi sahibkarlar İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) mövcud olan elektron kabinetləri vasitəsilə müraciət təqdim edir və dövlət büdcəsindən ayrılan vəsaitlər həmin fərdi sahibkarların bank hesablarına köçürülür.

Vəsaitlərin ödənilməsi bu qaydada həyata keçiriləcək:

Qeydiyyatda olan bütün vergi ödəyicilərinə “Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı” barədə onların şəxsi elektron kabinetinə bildirişlər və mobil telefonlarına SMS-lər göndəriləcək. Vergi ödəyiciləri İnternet Vergi İdarəsindəki şəxsi kabinetində “Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı” bölməsindən “fərdi sahibkarlara ödənişlər üzrə müraciət” alt bölməsinə daxil olaraq buradakı müvafiq alt bölmədə elektron qaydada müraciət formasını doldurmalıdır.

Müraciət formasında reyestr məlumatları (vergi ödəyicisinin adı, VÖEN-i, fəaliyyət sahələri, bank hesabları, 2019-cu il ərzində ödənilmiş vergilər) avtomatik əks olunacaq.

Vergi ödəyiciləri müraciətdə öz vergi rejimi (2 faiz sadələşdirilmiş vergi ödəyicisi olması, sabit qəbz almaqla fəaliyyət göstərməsi, daşıma fəaliyyəti ilə məşğul olması və ya gəlir vergisinin ödəyicisi (mikro) olması) barədə məlumatları onlayn qaydada doldurmalıdırlar. Bu məlumatlar uçot baza məlumatları ilə avtomatik qaydada yoxlanılır.

Sistem tərəfindən uyğunsuzluq aşkar edilmədikdə, məlumatlar avtomatik olaraq qəbul edilir və vergi ödəyicisinə bu barədə bildiriş göndərilir.

İqtisadiyyat Nazirliyi qeyd edir ki, müraciətin yoxlanması zamanı sistem tərəfindən uyğunsuzluqlar aşkar edilə bilər. Bu, vergi ödəyicisinin seçdiyi vergi rejiminin məlumat bazasında mövcud vergi rejiminə uyğun gəlməməsi, vergi ödəyicisinin fəaliyyətinin mart ayından əvvəl dayandırılmış olması, 2019-cu il ərzində büdcəyə vergi ödəmələri aparmaması, riskli vergi ödəyicisi ilə əməliyyat aparması ilə bağlı ola bilər. Bu hallarda vergi ödəyicisinə aşkar edilmiş uyğunsuzluqları aradan qaldırmaq və yenidən müraciət etmək imkanı veriləcək.

Fərdi sahibkar olan vergi ödəyicisinin dövlət büdcəsinə və ya büdcədənkənar dövlət fondlarına borcu ilə əlaqədar bank hesablarında sərəncam olduğu halda, köçürülən vəsaitin dondurulmaması və ya silinməməsi təmin olunacaq.

Fərdi (mikro) sahibkarın 2019-cu il ərzində dövlət büdcəsinə ödənişinin məbləği 250,0 manatdan az olduğu təqdirdə ona 250,0 manat məbləğində maliyyə dəstəyi göstəriləcək.

Maliyyə dəstəyinin maksimal həddi 5000 manat olacaq.

Nazirlik bütün vergi ödəyicilərindən xahiş edir ki, İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) mövcud olan elektron kabinetlərini mütəmadi qaydada izləsinlər.

***R.MƏMMƏDLİ,***
***“Azərbaycan”***

# Tovuzda sakinlərin istəyi ilə evlərə ərzaq məhsulları çatdırılır



Koronavirus infeksiyasına qarşı (COVID-19) mübarizə ilə bağlı Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın elan etdiyi karantin dövründə alış-veriş mərkəzlərinin fəaliyyətinə Tovuz rayonunda da ciddi nəzarət edilir. Belə ki, karantin rejimi dövründə, yəni aprelin 5-dən etibarən rayon ərazisində fəaliyyət göstərən supermarketlər sakinlərin evlərinə ərzaqların çatdırılması xidmətinə başlamışlar.

Tovuzda yerləşən “Sultan” market, “Əsədoğlu” marketlər şəbəkəsi və “Aləm” market bu işdə fərqlənərək istənilən sakinin sifarişini qısa vaxt ərzində heç bir əlavə vəsait ödənmədən həyata keçirirlər. Sakinlərin çətinlik çəkmədən ərzaq sifariş verməsi üçün qabaqcadan həmin marketlərin telefon nömrələri də elan edilmiş, ərzağın sifarişçiyə çatdırılması üçün nəqliyyat vasitələri ayrılmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Siyəzəndə dezinfeksiya işləri davam etdirilir

Respublikamızın hər yerində olduğu kimi, Siyəzəndə də COVID-19 pandemiyası ilə bağlı tibbi profilaktik tədbirlər davam etdirilir.



Rayonda əhalinin sağlamlığının müdafiəsi ilə əlaqədar mərkəzi küçələr, ictimai iaşə müəssisələri, təhsil ocaqları, yaşayış binaları dezinfeksiya edilir. Rayon mərkəzində yerləşən şəxsi həyət evləri də qabaqlayıcı tədbirlər qismində nəzarətə götürülüb. Həmin həyətlər səhərdən başlayaraq gün ərzində 2-3 dəfə təmizlənib dezinfeksiya olunur və əhaliyə evdə qalmaq, ehtiyac olmadıqda çölə çıxmamaq tövsiyə edilir.

Rayonda könüllülük hərəkatının üzvləri bu günlər daha böyük fəallıq göstərirlər. Əhali ilə maarifləndirmə işi aparır, yaşı 65-dən yuxarı insanlara sosial yardımlar göstərirlər.

İctimai nəqliyyat vasitələri də mütəmadi olaraq dezinfeksiya edilərək qısaldılmış marşrut xətlərinə buraxılır. Rayonda insanlar karantin rejiminin tələblərinə riayət edir, evdə qalmağa üstünlük verirlər. Siyəzəndə fəaliyyət göstərən operativ qərargah rayon sakinlərinin çağırışlarına həssaslıqla yanaşır və ortaya çıxan problemlər yerindəcə həll edilir.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Virtual musiqi dərsləri keçirilir

Ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı tətbiq edilən sosial izolyasiya və xüsusi karantin rejimində insanların mədəni irs və incəsənətimizə yaxın olması, eləcə də şagirdlərin musiqi tədrisinin ev şəraitində davam etdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının “Mədəniyyət” kanalı tərəfindən “Bizi birləşdirən mədəniyyət” layihəsi həyata keçirilir.




Layihə çərçivəsində lentə alınan musiqi dərslərinin ilk efir buraxılışı aprelin 1-də saat 18:30-da yayımlanıb. Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbindən yayımlanan ilk musiqi dərsi klarnet sinfinin 1-ci sinifləri üçün nəzərdə tutulub. Dərs məktəbin direktoru, Əməkdar artist Əziz Qarayusifli tərəfindən təqdim edilib.

3 hissədən ibarət, 30 dəqiqəlik musiqi dərsində müəllim əvvəlcə ibtidai siniflər üçün tövsiyə edilən dərsliklər barədə danışıb. O, bu vəsaitlərdən istifadə haqqında bəhs edib. Sonra düzgün ifa qaydaları izah olunub, notların düzülüşü və ifa, nəfəsalma variantları ilə bağlı tapşırıqlar verilib. Dərsin üçüncü hissəsi klarnet aləti üçün musiqi pyeslərinə həsr edilib. Bu zaman şagirdlərə nüanslara, templərə diqqət yetirmək tapşırığı verilib.

Xatırladaq ki, “Mədəniyyət” kanalı ilə musiqi dərsləri həftəiçi beş gün ayrı-ayrı musiqi alətləri üzrə təqdim olunacaq və müxtəlif siniflərin proqramını əhatə edəcək.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# «Evdə qal, evdə yarat»

## Mədəniyyət Nazirliyinin fəaliyyəti xüsusi karantin rejimi ilə bağlı qərara uyğun olaraq tənzimlənir

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 31 mart tarixli qərarına əsasən, ölkəmizin ərazisində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə elan olunan karantin dövründə xüsusi iş rejimi tətbiq edilib.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyəti də sözügedən qərara uyğun olaraq tənzimlənir. Nazirliyin aparatında məsul şəxslərin və əməkdaşların növbətçilik qrafiki üzrə iş rejimi həyata keçirilir. Eyni zamanda, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və regional idarələr, eləcə də aparıcı mədəniyyət müəssisələri fəaliyyətlərini videokonfrans rejimində davam etdirirlər. Müəssisə və təşkilatların əməkdaşlarının evdən distant iş formasında çalışması da təmin olunub. Bu günlər ərzində mədəni irsimizin və incəsənətimizin televiziya və internet üzərindən insanlara dolğun şəkildə çatdırılması üçün silsilə layihələr həyata keçirilir. Layihələr ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Nazirliyin təşəbbüsü ilə başlanan "Evdə qal, evdə yarat" kampaniyasına da yaradıcı insanlarımız öz dəstəyini verir.

Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı tərəfindən "Bizi birləşdirən mədəniyyət" adlı telelayihələrə artıq start verilib. Aprelin 1-dən televiziya ilə gündəlik musiqi dərsləri, Beynəlxalq Muğam Mərkəzindən tanınmış ifaçıların iştirakı ilə canlı konsert proqramlarının yayımına başlanılıb. Layihə çərçivəsində uşaqlar üçün kukla, böyüklərə mono-tamaşaların nümayişi də nəzərdə tutulub.

"Yaradıcılığı evdə öyrən - özünü kəsəf et və bacarıqlarınla tanın" adlı daha bir yeni layihə də öz işinə başlayıb. Bu proqram insanlara yeni bacarıqları kəşf etməyə və özünə əminlik hisslərini gücləndirməyə imkan yaradacaq. Artıq layihəyə müxtəlif yaradıcı şəxslər qoşulub.

Layihə uşaq və yeniyetmələrin də xüsusi marağına səbəb olacaq. Hazırda bütün dərnək və kursların keçirilməsi dayandırılıb. Eyni zamanda, evdə vaxtlarının səmərəli keçməsi üçün valideynlər də övladları ilə birgə yeni bacarıqlar əldə edə və bunu daha da təkmilləşdirə biləcəklər.

Martın 27-dən etibarən ölkəmizin bütün televiziya kanallarında "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan bədii filmlərin nümayiş etdirilməsinə şərait yaradılıb. Nazirliklə telekanalların əməkdaşlığı əsasında mədəni irsimiz və incəsənətimizin digər sahələri ilə bağlı birgə layihələr də hazırlanır.

Nazirliyin rəsmi internet saytında (mct.gov.az) və sosial şəbəkə səhifələrində mədəniyyətimizin bütün spektri ilə yaxından tanış olmaq üçün elektron resurslar, faydalı mənbələrə keçidlər var. "Uşaq musiqi və incəsənət məktəbləri tədris portalı"nda (http://music.mctgov.az/) müxtəlif musiqi alətləri üzrə nümunəvi video-dərslər yerləşdirilib.

Teatrlar fəaliyyətlərini müvəqqəti dayandırsalar da, repertuarlarından seçmə tamaşaları "Youtube" kanalı və sosial şəbəkə səhifələrində nümayiş etdirirlər. Kitabxanaların zəngin elektron resurslarından istifadə imkanları, onlayn xidmətləri bu günlər daha da genişləndirilir.

İnsanlar evlərində oturub muzeylərimizin ekspozisiyalarını virtual ziyarət edə bilir, mədəni irsimizlə bağlı onlayn mühazirələri dinləyir, maraqlı məlumatlarla tanış olurlar. Mədəniyyət qoruqlarının virtual ziyarət imkanları da mövcuddur.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Beynəlxalq aləm

## Avropanın bəzi dövlətləri karantini yüngülləşdirmək niyyətindədir



Avstriya, Danimarka və Çexiya koronavirus pandemiyası üzündən əhali və biznes üçün tətbiq edilmiş karantini tədricən yüngülləşdirmək məqsədilə konkret planlar təqdim etmişdir. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Danimarkada uşaq bağçaları və ibtidai məktəblər aprelin 15-dən etibarən işini bərpa edəcək. Baş Nazir Mette Frederiksen müvafiq planı təqdim edərkən qeyd etmişdir ki, səhiyyə ekspertləri hökumətin qərarının ağlabatan olduğunu bildirmişlər.

Avstriyada bütün məktəblər bağlı qalacaq və onlayn təhsili mayın ortasınadək davam etdirəcək. Bununla belə, aprelin 14-dən sahəsi 400 kvadratmetrədək olan mağazalar, həmçinin inşaat materialları və bağ ləvazimatı satan ixtisaslaşmış ticarət müəssisələri işə başlaya biləcək. Qalan mağazalar, ticarət mərkəzləri və bərbərxanalar mayın 1-də açılacaq. Lakin bu barədə yekun qərar cari ayın axırlarında qəbul olunacaq.

Çexiyada açıq havada tennis və qolf kimi fərdi idman növləri ilə məşğul olmağa icazə verilmişdir. Bu gündən etibarən ev və bağ ləvazimatı, əl işləri satan mağazalar, həmçinin velosiped təmiri emalatxanaları açılacaq.

Qitənin bir sıra digər dövlətləri də məhdudiyyətləri yüngülləşdirmək barədə planlar cızır. Alimlər isə hökumətləri düşünülməmiş addımlar atmaqdan çəkinməyə çağırırlar. Bəzi mütəxəssislər hesab edirlər ki, karantinin azacıq yüngülləşdirilməsi belə epidemiyanın ikinci dalğasının əmələ gəlməsi ilə nəticələnə bilər.

## Uhanın yolları açıldı

Çinin Uhan şəhəri koronavirusun yayılması üzündən 76 gün qapalı qaldıqdan sonra dünən ətraf aləmlə əlaqəsini bərpa etmişdir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Yollar açıldıqdan sonra bir neçə saat ərzində təxminən 65 min nəfər şəhərdən çıxmışdır. Söhbət qatar və təyyarədən istifadə edən adamlardan gedir. Eyni zamanda avtomobil yolları açılmışdır.

Son günlər 11 milyonluq Uhanda koronavirusa heç bir yoluxma halı qeydə alınmamışdır. Eyni zamanda yerli səhiyyə orqanları sakinləri yalnız zərurət yarananda şəhəri tərk etməyə çağırmışdır, çünki təkrar epidemiya dalğası istisna olunmur.

Yeni tip koronavirus ilk dəfə ötən ilin axırlarında Uhanda aşkarlanmışdır. Bu il yanvarın 23-də şəhər ətraf aləmdən tamamilə təcrid olunmuşdu. Uhanda 50 min nəfərdən çox adam koronavirusa yoluxmuş, onların təxminən 2600-ü vəfat etmişdir.

## ABŞ BVF-in İrana koronavirusla mübarizə üçün kredit ayırmasına mane olacaq




ABŞ Beynəlxalq Valyuta Fondunun (BVF) yeni tip koronavirusla mübarizə aparmaq üçün İrana 5 milyard dollarlıq kredit ayırmasına mane olmaq niyyətindədir. Bu barədə "Wall Street Journal" qəzeti ABŞ Prezidenti Administrasiyasındakı mənbələrə istinadən xəbər verir.

Mənbələrin fikrincə, İran hökumətinin virusun yayılması ilə mübarizə üçün kifayət qədər vəsaiti var və BVF Tehranı maliyyələşdirsə, bu puldan virusla mübarizə üçün yox, milli iqtisadiyyatın ABŞ sanksiyalarından əziyyət çəkən hissəsinə kömək üçün istifadə edəcək, yaxud vəsaiti Yaxın Şərqdəki müttəfiqlərini maliyyələşdirməyə yönəldəcək.

"The Wall Street Journal" qeyd edir ki, Vaşinqton BVF-in ən böyük səhmdarı olmaqla fondun kredit ayırıb-ayırmamasını xeyli dərəcədə müəyyənləşdirir. Lakin təşkilatın digər üzvləri fərqli qərar qəbul edib ABŞ-la razılaşmaya bilərlər.

ABŞ rəsmiləri hesab edirlər ki, İranın neft və qaz satışı hesabına formalaşan Milli İnkişaf Fondunda milyardlarla dollar pulu var. ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Huk əvvəllər bir müsahibəsində bildirmişdi ki, Tehran müxtəlif hərbi əməliyyatlara sərf etdiyi pulu koronavirusla mübarizəyə yönəltməlidir.

# Ermənistanda koronavirusun geniş yayılmasının səbəbkarı hakimiyyətdir

*Əvvəli 1-ci səh.*

### Sosial-iqtisadi durum sürətlə pisləşir

Ermənistanda sosial-iqtisadi durum da məlum koronavirus pandemiyası ucbatından daha sürətlə pisləşir. Buna əsas səbəb işğalçı ölkənin azsaylı əlaqədə olduğu dövlətlərlə münasibətlərinin tamamilə pozulmasıdır. Burada xüsusilə Rusiya və İran faktoru qeyd edilməlidir. Hər iki ölkədə pandemiya geniş yayıldığından onlar üçün Ermənistan arxa plana keçib. Belə halda Ermənistanın daxili resursları kifayət qədər məhdud olduğundan burada vəziyyət sürətlə pisləşir. Proseslərin gedişi Paşinyan iqtidarını dalana dirədiyindən o, sələflərinin yolu ilə gedərək daxili narazılığı səngitmək üçün cəbhə təxribatlarına daha çox diqqət yetirməyə başlayıb. Amma bu hal da Paşinyan üçün baha başa gəlməyə başlayıb.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində son dövrlərdə atəşkəs rejimini yenidən tez-tez pozur. Eləcə də son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində də gərginlik müşahidə edilir. Azərbaycan əsgəri də hər dəfə işğalçı ölkəyə layiqli cavab verir.

Cəbhədə vəziyyəti gərginləşdirməklə Paşinyan iqtidarının daxili gərginliyi səngitmək cəhdləri uğursuzluqla nəticələnəcək. İlk növbədə o baxımdan ki, bu hal daha çox erməni hərbçisinin məhvinə səbəb olur və bu da yeni narazılığa təkan verir. Son zamanlar Ermənistanda baş verən siyasi və hərbi hadisələri izləyərkən görünür ki, populist şüarlarla hakimiyyətə gəlmiş baş nazir Nikol Paşinyan möcüzə gözləyən kütlələrin etimadını doğrultmadı və o, yerli əhali arasında nüfuzunu getdikcə itirir.

### "Qarabağda "seçkilərin" ikinci turuna getmək avantüradır"

Bu durumda diqqət mərkəzində yer alan məsələlərdən biri virusun zəbt edilmiş Azərbaycan ərazilərində də yayılmasının mümkünlüyüdür. Məsələ ilə bağlı "ArmNews" telekompaniyasının departament rəhbəri Abraam Qasparyan qeyd edir: "Əgər koronavirus Dağlıq Qarabağa çatsa, bunun məsuliyyətini Ermənistanın baş naziri və səhiyyə naziri daxil olmaqla 6 nəfər daşıyacaq".

Onun sözlərinə görə, Ermənistanın burada böyük məsuliyyəti var: "Bizim məmurların bunun "suveren dövlətin daxili qərarı" olduğunu, Ermənistanın "demokratik dövlətin" işlərinə müdaxilə etməməsini söyləməsi qəbuledilməzdir. Pandemiya Qarabağa çatsa, burada 6 nəfər məsuliyyət daşıyacaq: Ermənistan prezidenti, baş naziri, Təhlükəsizlik Şurasının katibi, səhiyyə naziri, "Qarabağın prezidenti" və "səhiyyə naziri".

Xüsusi olaraq qeyd olunur ki, 14 apreldə Qarabağda "seçkilərin" ikinci turuna getmək avantüradır. "1in.am" portalı da məsələyə eyni prizmadan yanaşır: "Qarabağda keçiriləcək ikinci turdan öncə Yerevandan necə bir siyasi siqnalın gələcəyi də çox vacibdir. Əlbəttə, virusun Yerevandan Qarabağa yayılması mühümdür, çünki bu, "seçkilərin" ikinci turunun keçirilməsinin təminatıdır. Amma virus burada tapılsa, onda "seçkilər" baş tutmayacaq. Keçmiş hərbi xuntaya yaxın olanlar hələ müəyyən müddət "hakimiyyət" başında qalacaq".

Bildirilir ki, söhbət ikinci turdan gedirsə, burada koronavirusla bağlı vəziyyətin necə olacağı, əlbəttə, əhəmiyyətlidir. Birinci turun keçirilməsi "seçkilərin" təxirə salınması çağırışları ilə müşayiət olundu, lakin siyasi qərar dəyişmədi. Bu dəfə durum necə olacaq? Virus burada yayılsa, vəziyyət çox mürəkkəb olacaq.

### "Cavabdeh Paşinyandır"

"Modus vivendi" mərkəzinin rəhbəri Ara Papyan bildirir ki, bu halda Paşinyan niyyətinə çatmayacaq. Onun sözlərinə görə, bütün dünyada kütləvi tədbirlərin ləğv edildiyi, karantin tətbiq olunduğu bir vaxtda Qarabağda insanları "seçki məntəqələrinə" aparmaq virusun yayılması üçün böyük risk yaradıb: "Deyirlər ki, Qarabağda yoluxma halı aşkarlanmayıb. Kim bunu axtarıb? Cəmi 29 nəfərdən analiz götürüblər. Üstəlik mən orada olmasam da, dostlarım bildirir ki, bu "seçkilər" hansı pozuntularla keçib. Müxtəlif formalarda rüşvət verilməsi, "seçicilərin" ələ alınması, onlara təzyiqlər və təhdidlər barədə nəhəng həcmdə informasiyalar daxil olub".

Papyan deyib ki, bu "seçkilər" Qarabağda yaşayanları riskə atıb və tezliklə hökmən koronavirusa yoluxma halları açıqlanacaq: "Çünki daha bunu gizlədə bilməyəcəklər". Ermənistanın Demokratik Vətən Partiyasının sədri Petros Makeyan da eyni fikirdədir: "Əgər səhiyyə naziri, daha sonra da Paşinyan koronavirusla bağlı vəziyyəti düzgün qiymətləndirsəydilər, bu cür mənzərəyə sahib olmazdıq, vəziyyətin məsuliyyətini onlar daşıyırlar. İndi də virusu Qarabağda yaymaqdan çəkinmirlər. Koronavirus problemi bütün dünyada var. Faktlarla, gecikmiş fəaliyyətlərlə qiymətləndiririk. Səlahiyyətlilər digərlərini dinləməmək kompleksindən qurtulmalıdırlar, bugünkü vəziyyətin cavabdehi Ermənistanın səhiyyə naziri Arsen Torosyan və Nikol Paşinyandır".

Bütün bunlara görə yerli ekspertlər həyəcan təbili çalır, mövcud vəziyyəti dərin böhran kimi dəyərləndirir, eyni zamanda N.Paşinyan rejiminin ciddi imtahan qarşısında olduğunu söyləyirlər. Əgər hakimiyyət bu imtahandan çıxa bilməsə, erməni əhalisini ciddi sınaqlar gözləyir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Tank heyətlərinin döyüş hazırlığı yoxlanılır

**Bu il üçün hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri davam edir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, çöl məşqləri zamanı heyətlərin bacarığı və uyarlılığı yoxlanılır, gündüz və gecə vaxtı hərəkətdə olan şərti düşmən hədəflərinə döyüş atışları icra olunur. Bundan əlavə, şəxsi heyət döyüş maşınlarının idarə olunması üzrə praktiki təlim tapşırıqlarını icra edir.





# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx kəndi yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.


## Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması respublikanın 34 şəhər və rayonunda (Ağcabədi, Ağdaş, Ağsu, Astara, Bərdə, Beyləqan, Biləsuvar, Cəlilabad, Goranboy, Göygöl, Hacıqabul, İsmayıllı, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Siyəzən, Şabran, Şamaxı, Şirvan, Şəmkir, Tərtər, Tovuz, Ucar, Xaçmaz, Yardımlı, Yevlax, Zaqatala, Qax, Qazax, Qobustan, Qusar) cəmi 500 ədəd olmaqla fərdi evlərin tikintisi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (012) 596-44-09 ünvanından ala bilərlər.

**İştirak haqqı: 2500 (iki min beş yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **12 may 2020-ci il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə 21 may 2020-ci il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **22 may 2020-ci il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abşeron DOST Mərkəzinin təmir-quraşdırma işləri üçün layihə işlərinin satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir.

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Prosedur "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 15 aprel 2020-ci il 12:00 tarixədək qəbul olunur.

İddiaçıların təklifləri 15 aprel 2019-cu il saat 15:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 29 fevral 2020-ci il tarixdə elan olunmuş Abşeron DOST Mərkəzinin təmir-quraşdırma işləri üçün layihə işlərinin satın alınması üzrə elan olunmuş açıq tender proseduru tender təklifi verən malğöndərənlərin sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ləğv olunmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 11 mart 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə elektrik lampalarının satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün tələb olunan sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 aprel 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 04 may 2020-ci il saat 16:00-a, təkliflərin açılışı isə 05 may 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Ağstafa Suvarma Sistemləri İdarəsi ilə "Ruzi" MMC arasında 14.02.2020-ci il tarixli 06 nömrəli tender müqaviləsi hər iki tərəfin razılığı əsasında ləğv edilmişdir.

Bu barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə məlumat verilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankında maliyyə bazarlarına nəzarət üzrə Vahid Nəzarət və Monitorinq Sisteminin yaradılması ilə bağlı tender elanı

Azərbaycan Respublikası Mərkəzi Bankı maliyyə bazarlarına nəzarət üzrə avtomatlaşdırılmış Vahid Nəzarət və Monitorinq Sisteminin yaradılması ilə bağlı açıq tender keçirir.

Tender proseduru 27 may 2020-ci il saat 15:00-da Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 13 iyul 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahə (analitik hesabatlıq və avtomatlaşdırılmış informasiya sistemlərinin yaradılması və tətbiqi) üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *müvafiq sahə üzrə ən azı 5 (beş) sertifikatlaşdırılmış mütəxəssisin olmasını təsdiq edən sənədlərin surəti;*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 22 may 2020-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 13 may 2020-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 500 (beş yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33

**Federal Reserve Bank of New York**
**corr. account number: 021088221 AZER**
**account №: AZ25NABZ01701190000000001944.**

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Maliyyə bazarlarına nəzarət sistemi tender üzrə satınalma müqaviləsi imzalandığı gündən ən geci 2 (iki) il müddətində təhvil verilməlidir.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tenderin əlaqələndirici şəxsi: Elman Muradov (İnformasiya texnologiyaları departamentinin əməkdaşı). Telefon: 493-11-22 (499), faks: 493-55-41, elektron poçt ünvanı: elman_muradov@cbar.az.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

### *açıq tenderə dəvət edir*

- Fondun nəzdində olan sosial xidmət müəssisələri üçün Dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/h: AZ91CTRE00000000000002138206**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142340**
**Büdcə səviyyəsinin kodu: - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29.04.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.05.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.05.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə beton məmulatlarının satın alınması üzrə

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 1(bir) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**

**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 aprel 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **07 may 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **08 may 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## Azercell abunəçilərinin nəzərinə

Karantin rejimi ilə əlaqədar, fakturalı xətt sisteminə aid nömrələrdə 25.03.2020-ci il tarixli faktura borcunun son ödəmə tarixi 14 gün uzadılaraq 23.04.2020-ci il tarixə, 05.04.2020-ci il tarixli faktura borcunun son ödəmə tarixi isə 14 gün uzadılaraq 05.05.2020-ci il tarixə dəyişdirilmişdir. Göstərilən son ödəmə tarixinədək müvafiq faktura borcu ödənilmədiyi təqdirdə həmin nömrəyə xidmət göstərilməsinə məhdudiyyət qoyula bilər. İnternet səhifəmizdən online ödənişlər həyata keçirmək imkanı olduğunu xatırladır və eyni zamanda "Kabinetim" tətbiqi vasitəsilə balans barədə ətraflı məlumat əldə etmək, bəzi əməliyyatlar həyata keçirmək imkanı olduğunu bildiririk.


## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

*2020/2021-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla*
**təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir**

- **050401 Dünya iqtisadiyyatı**
- **050403 Maliyyə**
- **050404 İqtisadiyyat**
- **050402 Mühasibat uçotu və aııdit**
- **050406 Statistika**
- **050407 Menecment**
- **050410 Dövlət və bələdiyyə idarəetməsi**
- **050655 İnformasiya texnologiyaları**
- **050656 Sistem mühəndisliyi**
- **050409 Biznesin idarə edilməsi**
- **050405 Sənayenin təşkili və idarə olunması**
- **050408 Marketinq**
- **050510 Ekologiya**
- **050411 Kommersiya**
- **050644 İstehlak mallarının ekspertizası və marketinqi**
- **050642 Qida məhsulları mühəndisliyi**
- **050321 Dizayn**
- **050643 Çoxişlənən malların texnologiyası mühəndisliyi**
- **050625 Texnoloji maşın və avadanlıqlar mühəndisliyi**
- **050647 Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi**

**UNEC-in Zaqatala filialı üzrə**

- **050403 Maliyyə**
- **050404 İqtisadiyyat**
- **050402 Mühasibat uçotu və aııdit**
- **050407 Menecment**
- **050655 İnformasiya texnologiyaları**
- **050409 Biznesin idarə edilməsi**
- **050408 Marketinq**
- **050810 Turizm və hotelçilik**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada http://www.kabinet.unec.edu.az internet linki vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar. Təkrar ali təhsil almaq hüququ qazanacaq şəxslər üçün vəziyyət nəzərə alınmaqla tədrisin distant formada təşkili istisna edilmir.

Sənədlərin qəbulu 2020-ci il aprel ayının 10-dan iyul ayının 1-dək aparılacaq.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***

- *rektorun adına ərizə;*
- *ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);*
- *3x4 sm ölçüdə fotoşəkil;*
- *şəxsiyyət vəsiqəsinin surəti.*

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Akademik Həsən Əliyev küçəsi 135, otaq 518**
**Tel.: (012) 564-38-92**
**Mobil : (070) 578-08-59 (həmçinin WhatsApp ünvan)**
**Facebook ünvanı: https://www.facebook.com/unectekraralitehsil/**

***Rektorluq***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 13.03.2020-ci il tarixli nömrəsində elanı dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankı üçün elektrik mallarının satın alınması ilə bağlı kotirovka sorğusu Satınalmalar komissiyasının 03 aprel 2020-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun "Cari pensiya sisteminin beynəlxalq qabaqcıl təcrübələr əsasında təhlili, müvafiq tövsiyələrin hazırlanması, inkişaf modellərinin təqdim edilməsi və yol xəritəsinin tərtibatı xidmətlərinin satın alınması" məqsədilə etender.gov.az saytında 04.03.2020-ci il və "Azərbaycan" qəzetinin 05.03.2020-ci il tarixli nömrəsində elan etdiyi kotirovka sorğusunda iddiaçılardan daxil olmuş kotirovka təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmə nəticəsində "PRAYSVOTERHAUSKUPERS İSTERN YUROP B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialı qalib müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Sadıxovlar ailəsinə əzizləri

**RAUF SADIXOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları

**FAZİL PƏRVANDƏ OĞLU PƏNAHOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7285
Sifariş 930
Qiyməti 40 qəpik